RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 109 (8425) ÇƏRŞƏNBƏ, 10 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Prezident vətəndaşların sağlamlığını tam nəzarətində saxlayır



## İlham ƏLİYEV: "Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır"

İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub. AZƏRTAC xəbər verir ki, bunlar paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləridir.

Beləliklə, daha üç modul tipli xəstəxana istifadəyə hazırdır. Bu, COVID-19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır. Əsas məqsəd koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməkdir.

Prezident İlham Əliyevə məlumat verildi ki, üç modul tipli xəstəxanadan biri Bilgəh qəsəbəsindəki 28 saylı Bilgəh Birləşmiş Şəhər Xəstəxanasına, digər ikisi isə Sumqayıtdakı 1 saylı Şəhər Xəstəxanasına və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxanaya təhkim olunub. Koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün hər cür şəraitin yaradıldığı, ümumilikdə, 100 palata və 200 çarpayı yeri olan üç korpuslu bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub. Palatalara ötürülən hava ventilyasiya qurğusu ilə təmizlənir.

Qeyd edək ki, ilk belə xəstəxana mayın 7-də paytaxtda istifadəyə verilib. Daha altı kompleksin isə bölgələrdə inşa edilərək istifadəyə verilməsi nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həkim kollektivi ilə görüşdülər.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri **Ramin BAYRAMLI** dedi:

- Möhtərəm cənab Prezident, bu gün 28 saylı Birləşmiş şəhər xəstəxanasının nəzdindəki modul tipli xəstəxananın açılışında iştirak etdiyinizə görə Sizə bütün həkimlərin adından təşəkkürümüzü bildiririk. Eyni zamanda bu gün Sumqayıt şəhər 1 saylı Xəstəxananın və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxananın nəzdində fəaliyyət göstərəcək modul tipli xəstəxanaların da videoformatda açılışı olacaq.

Xəstəxanalar haqqında videoçarx nümayiş etdirildi.

Dövlət başçısı görüşdə çıxış etdi.

*Bax: səh. 2*

## Portuqaliya Respublikasının Prezidenti Zati-aliləri cənab Marselu Rebelu di Souzaya

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Portuqaliya xalqına daim rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2020-ci il*

## "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 99-VIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 99-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-5.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 99-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2020-ci il*

## "Sizin düşünülmüş, uzaqgörən siyasətiniz sayəsində Azərbaycan çox uğurlar əldə edib, çətinliklərə sinə gərib"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Ağdam rayonundan məcburi köçkün **Sabah Mustafayeva:** "Hörmətli cənab Prezident, mən 30 ilə yaxındır ki, erməni işğalı nəticəsində öz elimdən, obamdan köçkün düşərək Göyçayda məskunlaşmışam. 2019-cu ildə Sizin göstərişinizlə Göyçay şəhərində məcburi köçkün və qaçqın ailələri üçün yaşayış binası tikilmişdir. Mən də həmin binada mənzillə təmin olunmağım üçün müraciət etmişdim. Müraciətimə baxıldıqdan sonra mənə çox sevindirici xəbər çatdırdılar. Mənə də o binadan mənzil verildi. Hörmətli cənab Prezident, bu ahıl yaşımda mənə belə sevinc bəxş etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin və Mehriban xanımın qayğıkeşliyinizə və humanistliyinizə görə bir ana kimi alnınızdan öpürəm.

Şirvan şəhərindən **Mələk Əkpərzadə:** "Möhtərəm cənab Prezident, dünyanın ən təhlükəli bəlasına çevrilmiş koronavirus pandemiyasına qarşı Sizin rəhbərliyinizlə ölkəmizdə aparılan mübarizənin dövlətimizi və xalqımızı bu dəhşətli xəstəliyin ağır sınağından çıxaracağına uğurla inanırıq. Sizin düşünülmüş, uzaqgörən siyasətiniz sayəsində Azərbaycan çox uğurlar əldə edib və çətinliklərə sinə gərib. Pandemiyanın ilkin mərhələsində verdiyiniz hər bir qərar, həyata keçirdiyiniz bütün tədbirlər qısa bir zamanda öz müsbət nəticəsini göstərdi. Bu gün yoluxma hallarının çox olmasına baxmayaraq, əminik ki, həyata keçirilən tədbirlər nəticəsində bu bəladan tamamilə qurtulmaq mümkün olacaqdır. Siz ən ağır günlərdə xalqı düşünməklə, onun yanında olmaqla əsl lider kimi öz müqəddəs missiyanızı bir daha yerinə yetirdiniz. Biz Sizə həmişə inanmışıq və indi də inanırıq. Möhtərəm Prezident, ölkəmizin inkişafı, xalqımızın xoşbəxt gələcəyi naminə atdığınız hər bir addımda Sizə uğurlar arzulayıram. Siz xalqa arxalandığınız kimi, xalqımız da hər zaman Sizə arxalanır".

Bakının Binəqədi rayonundan **Elnarə Rəşidova:** "Möhtərəm cənab Prezident, bütün dünyanı çənginə alan COVID-19 pandemiyası bizim ölkədən də yan keçmədi. Amma Sizin dəstəyinizlə görülən işlər sayəsində ölkəmiz digər ölkələrlə müqayisədə az itki verdi.

*Ardı 3-cü səh.*



## Deqradasiyaya uğramış təşkilat

### İlham ƏLİYEV: "Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil"

Azərbaycanın bu gün əzəmətli dövrünü yaşaması müasir tariximizin ən mühüm reallığıdır. Dayanıqlı iqtisadi inkişafı, yüksəlişi ilə Cənubi Qafqazın liderinə çevrilməsi, qlobal enerji təhlükəsizliyi, nəqliyyat dəhlizlərinin yaradılması kimi məsələlərdə söz sahibi olması, hər sahədə tam müstəqil mövqe nümayiş etdirməsi respublikamızın beynəlxalq münasibətlər sistemində yerini möhkəmlədən mühüm siyasi-iqtisadi faktorlardır.

#### Azərbaycanın inkişafı və uğurları təhrif olunur

Son dövrlərdə ölkəmiz bir sıra əlamətdar hadisələrlə regionda və dünyada öz mövqelərini daha da bərkitməkdədir. Bunlara misal olaraq "Cənub qaz dəhlizi"nin və onun digər seqmentlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsini, "Əsrin müqaviləsi"nin uzadılmasını, kosmosa ardıcıl olaraq peyklərin göndərilməsini qeyd etmək olar. Artıq TAP kəmərinin insaşında son tamamlanma işləri aparılır və gələn ildən Azərbaycan qazı Avropa bazarlarına çatdırılacaq.

*Ardı 6-cı səh.*

## İlham Əliyevin tarixi xidmətləri

### İrəvanın ermənilərə verilməsi ilə bağlı əsl həqiqətlər

Prezident İlham Əliyev real tarixi həqiqətlərə və ilk mənbələrə əsaslanaraq dəfələrlə bütün dünyaya birmənalı şəkildə və qətiyyətlə bəyan edib ki, ermənilər Azərbaycan Xalq Cümhuriyyətinin onlara verdiyi İrəvan və ətrafını əhatə edən Azərbaycan torpaqlarında bir dəfə özlərinə dövlət yaradıblar. Azərbaycan öz ərazisində təcavüzkar Ermənistana ikinci erməni dövləti yaratmağa imkan verməyəcəkdir! Dövlət başçısının tövsiyə və tapşırıqları əsasında Tarix İnstitutunda bu istiqamətdə aparılan tədqiqatlar daha da genişləndirilmiş, İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının ermənilərə verilməsi ilə bağlı bir sıra yeni sənədlər və maraqlı faktlar aşkar olunmuşdur.

Tarix İnstitutunda Azərbaycan Xalq Cümhuriyyətinin tarixini araşdıran ayrıca şöbə fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrindən Cümhuriyyət tarixinə dair ilk mənbələr və arxiv sənədləri ölkəmizə gətirilir. Cümhuriyyət tarixinə dair çoxsaylı sanballı əsərlər, o cümlədən ikicildlik ensiklopediya nəşr edilib. Elmi müəssisədə aparılmış tədqiqatlar nəticəsində sübut edilib ki, 1918-ci ilə qədər Cənubi Qafqazda heç zaman erməni dövləti olmayıb. Həmçinin institutun Elmi Şurasının qərarı ilə İrəvanın ermənilərə verilməsi məsələsinə həsr olunan "Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququ bərpa olunmalıdır" adlı kitab (Azərbaycan, rus və ingilis dillərində) çap olunub.

Prezidentin İrəvanın verilməsi ilə bağlı fikirləri real tarixi faktlara, tarixi həqiqətə əsaslanıb: "Əlbəttə ki, biz heç vaxt unutmamalıyıq ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı, bizim qədim şəhərimizi Ermənistana vermək idi. Bunu heç cür əsaslandırmaq və heç vaxt bağışlamaq olmaz".

*Bax: səh. 4*



## İnsanları təhdid edən təhlükə davam edir

### COVID-19-un peyvəndinin tapılmasına qədər koronavirusdan yeganə qurtuluş yolu vətəndaş məsuliyyətidir

Qlobal pandemiya elan edilən yeni növ koronavirus (COVID-19) bəşəriyyəti təhdid etməkdə davam edir. Bütün ölkələrdə xəstəliyin yayılmaması üçün ciddi tədbirlər görülür, amma təəssüf ki, hələlik "taclı" bəlanın qarşısını almaq mümkün olmayıb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus bildirib ki, Avropada koronavirusla bağlı vəziyyət yaxşılaşsa da, dünya miqyasında pisləşir.

İnsanları təhdid edən təhlükə davam edir və bəşəriyyət 6 aydır koronavirusla mübarizədə bir addım da önə keçə bilməyib...

#### Pandemiyanın təsirini minimuma endirmək üçün zəruri tədbirlər görülür

Qlobal təhlükə Azərbaycandan da yan keçməyib və ölkəmizdə virusun üzə çıxdığı ilk zamandan etibarən ona qarşı mümkün effektiv və zəruri tədbirlər ardıcıllıqla həyata keçirilir. Dövlətimiz cidd-cəhdlə çalışır ki, pandemiyanın əhaliyə təsirini mümkün qədər minimuma endirsin.

*Ardı 7-ci səh.*

# Prezident vətəndaşların sağlamlığını tam nəzarətində saxlayır

## İlham ƏLİYEV: "Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır"

## Prezident İlham Əliyevin çıxışı






- Bu gün çox əlamətdar bir gündür. Ölkəmizdə modul tipli üç xəstəxana açılır. Bu xəstəxanalarda koronavirus xəstələri müalicə olunacaq və beləliklə, koronavirusla bağlı mübarizədə növbəti önəmli addım atılır.

Modul tipli birinci xəstəxana bir ay bundan əvvəl, mayın 7-də açılmışdır və hazırda bu xəstəxanaların sayı dördə çatıb. Mən mayın 7-də açılış mərasimində qeyd etdim ki, bu xəstəxanaların sayı 10-a çatmalıdır. Ümid edirəm ki, yaxın gələcəkdə, təxminən ayın sonuna qədər qalan 6 xəstəxana da istifadəyə veriləcəkdir. Beləliklə, bizim əlavə iki min çarpayımız olacaqdır və bu, koronavirusla bağlı mübarizədə imkanlarımızı daha da genişləndirəcək.

Sevindirici hal ondan ibarətdir ki, bu 10 xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edəcək. Beləliklə, dövlətin üzərində yük bir qədər azalır. Özəl sektorun nümayəndələrinə və eyni zamanda adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bildiyiniz kimi, mənim təşəbbüsümlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıbdır və ilkin olaraq Prezidentin Ehtiyat Fondundan bu fonda 20 milyon manat vəsait ayrılmışdır. Ancaq bu gün sahibkarlar və adi vətəndaşlar hesabına fonda yığılmış məbləğ 100 milyon manatı ötüb. Bu, bir daha onu göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilir. Ona görə mən özəl sektorun bu işlərdə fəal rolunu dəstəkləyirəm. Eyni zamanda ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu və digər ictimai təşkilatlar, sahibkarlar bu dövrdə maddi vəziyyəti aşağı olan insanlara humanitar yardım da göstərmişlər və bu proses davam edir. Amma hər kəs bilir ki, bu mübarizədə, əlbəttə ki, əsas yük Azərbaycan dövlətinin üzərinə düşür. Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək.

Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Son 10 gün ərzində yoluxanların sayı artır. Bu da ondan irəli gəlir ki, yumşalma dövründə bəzi vətəndaşlar məsuliyyətsizlik göstərmişlər. Buna baxmayaraq, vəziyyət tam nəzarət altındadır. Bizim xəstəxanalarda kifayət qədər yerlərimiz var, reanimasiya şöbələrimizdə də həmçinin. Eyni zamanda əlavə iki min çarpayılıq 10 xəstəxanada koronavirus xəstələrinin müalicəsi nəzərdə tutulur. Bu günə qədər hələ ki, buna ehtiyac yoxdur. Ancaq biz bütün addımlarımızı elə atırıq ki, ən kritik vəziyyətə hazır olaq, ən böhranlı vəziyyətdə də bütün xəstələrə tibbi xidmət göstərilsin.

Onu da bildirməliyəm, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir.

Qabaqlayıcı bütün tədbirlər elə görülüb ki, biz ən çətin vəziyyətə hazır olaq. Bu məqsədlə yeni laboratoriyalar alınıbdır. Hazırda laboratoriyaların sayı 20-dən çoxdur. Koronavirus xəstələrini müalicə etmək üçün bizim ən qabaqcıl xəstəxanalar ayrılıb, onlara təqdim edilib, o cümlədən "Yeni Klinika" - bizim ən gözəl, ən müasir xəstəxanamız və digər xəstəxanalar. Bu xəstəxanaların sayı 20-dən çoxdur. Eyni zamanda hesab edirəm ki, karantin şəraitində qalan vətəndaşlar üçün də dünya miqyasında Azərbaycanda xüsusi şərait yaradılıb. Çünki onlar 4-5 ulduzlu hotellərdə, eyni zamanda Atletlər kəndində yerləşdirilir və karantin rejimində olan ən çox insan Atletlər kəndində yerləşdirilibdir. Minlərlə insan xaricdən təxliyə edilib və bu proses davam etdirilir, təbii ki, qrafik üzrə. Orada da bütün işlər mütəşəkkil qaydada görülməlidir. Bildiyiniz kimi, xüsusi portal yaradılıb və Azərbaycana qayıtmaq istəyən vətəndaşlar o portalda qeydiyyatdan keçirlər, növbəlilik prinsipi əsasında dövlət hesabına ölkəmizə gətirilirlər. Yəni bütün şərait yaradılıb ki, Azərbaycan vətəndaşları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunsun. Hesab edirəm ki, bu günə qədər görülmüş işlər və işlərin nəticələri məhz bu siyasətin təzahürünü əks etdirir. Təsadüfi deyil ki, beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb, özü də bir neçə dəfə. Həm pandemiyanın ilk mərhələsində ki, biz operativ tədbirlər gördük, bütün lazımi məhdudlaşdırıcı addımları atdıq, həm də ondan sonrakı dövrdə və bu yaxınlarda yenə də Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri Azərbaycanda görülmüş işləri çox yüksək qiymətləndirmişlər.

Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. Bu günə qədər mən hər gün yüzlərlə vətəndaşdan məktub alıram. Bu məktublarda görülmüş işlərə yüksək qiymət verilir. Bu məktubların çox kiçik bir hissəsi mətbuatda dərc edilir. Ancaq o məktublar göstərir ki, bütün rayonlardan, bütün kateqoriyalara aid olan insanlardan bu məktublar gəlir və insanlar minnətdarlıqlarını bildirirlər. Eyni zamanda məhdudlaşdırıcı dövr ərzində çətin vəziyyətə düşmüş vətəndaşların maddi məsələləri də həll olunubdur və Azərbaycan burada da liderlik göstəribdir. Ümumiyyətlə, mübarizəyə və pandemiyadan əziyyət çəkən işsiz adamlara, aztəminatlı təbəqəyə aid olan insanlara, sahibkarlara və bütün işləri təşkil etmək üçün 3,5 milyard manat vəsait nəzərdə tutulubdur və bu vəsait xərclənir. Tibbi avadanlığın, dərman preparatlarının alınması - bütün bu işlərə dövlət böyük vəsait ayırdı.



Eyni zamanda mən bu işləri təşkil edən qurumların fəaliyyətini də yüksək qiymətləndirirəm. Operativ Qərargah, İcbari Tibbi Sığorta Agentliyi və TƏBİB fəal işləyirlər. Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır.

Ona görə dünyada baş vermiş hadisələrə və bir çox inkişaf etmiş ölkələrdə koronavirusla bağlı acınacaqlı vəziyyətə baxdıqda bir daha görürük ki, Azərbaycan bu sahədə də öz modelini ortaya qoyub və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilib. Əlbəttə ki, mən bizi başqa ölkələrlə müqayisə etmək fikrində deyiləm. Ancaq dünyada hər şey müqayisə ilə ölçülür. Misal üçün, bu günə qədər Azərbaycanda yoluxanların sayı 8 minə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə biz qabaqcıl yerlərdəyik. Ancaq qonşu Ermənistanda yoluxanların sayı 13 mini ötüb və testlərin sayı bizdəkindən 5-6 dəfə azdır. Nəzərə alsaq ki, Ermənistan əhalisi Azərbaycan əhalisindən 5 dəfə azdır, mənzərə tam aydındır. Əgər mən gündə yüzlərlə təşəkkür məktubu alıramsa, Ermənistan rəhbərliyi yüzlərlə lənətlə dolu çağırışlar eşidir.

İnkişaf etmiş ölkələrlə digər müqayisəni də apara bilərəm. Məsələn, bir neçə inkişaf etmiş ölkə var ki, orada ölənlərin sayı bizdə yoluxanların sayından çoxdur. O inkişaf etmiş ölkələr ki, orada səhiyyə sistemi həmişə etalon, bir nümunə hesab edilib. Bəzi inkişaf etmiş ölkələrdə, o ölkələrdə ki, əhalisi bizimlə təxminən eynidir, on minə yaxın insan ölüb. Bizdə isə sadəcə yoluxanların sayı 8 minə qədərdir. Ona görə bizdəki yanaşma, - hər bir yoluxmuş insana tibbi xidmət göstərilir, - ən düzgün, ən humanist yanaşmadır və bu istiqamətdə əlavə addımlar atılacaq.

Biz eyni zamanda sənaye imkanlarımızdan da istifadə etdik. Qısa müddət ərzində tibbi maska müəssisələri fəaliyyətə başladı. İki müəssisə indi fəaliyyətdədir. Dezinfeksiya vasitələri artıq Azərbaycanda istehsal olunur. Eyni zamanda Azərbaycanda həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur. Həmçinin biz tibbi maskaları xaricdən də idxal edirik. Çünki tələbat artır və tələbatın artması bilavasitə məhdudlaşdırıcı tədbirlərlə bağlıdır. Biz müşahidə edirik ki, vətəndaşlar son günlər tibbi maskalardan daha çox istifadə edirlər. Bir daha demək istəyirəm ki, bu, qapalı şəraitdə mütləqdir. Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir - ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin. Çünki cəmi bu üç amil, - bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, - gərək nəzərə alınsın: tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb.

İndi bütün ölkələrdə yumşaldıcı addımlar atılır, o cümlədən Azərbaycanda. Buna baxmayaraq, mən onu da demişdim ki, əgər görsək xəstələrin sayı kəskin artır, yenə də məhdudlaşdıracağıq. Bu məhdudlaşdırıcı addımların səbəbi də bəllidir. Bəzi insanlar məsuliyyətsizlik göstərirlər. Ancaq, bütövlükdə, deyə bilərəm ki, Azərbaycan cəmiyyəti çox böyük məsuliyyət, nizam-intizam göstərir. Şənbə-bazar günlərində xüsusi karantin rejimi bunu göstərdi, qayda pozuntuları çox cüzi sayda olmuşdur. Bu onu göstərir ki, vətəndaşlar məsuliyyəti dərk edirlər. Ancaq hər bir vətəndaş bunu dərk etməlidir. Çünki bir məsuliyyətsiz vətəndaş yüz nəfəri yoluxdura bilir, onların və özünün həyatını risk altına ata bilir.

Koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Həkimlərin ümumi rəyinə görə, peyvənd icad olunana qədər insanlar bu xəstəlikdən əziyyət çəkəcəklər. Ona görə biz də hazır olmalıyıq ki, yeni davranış qaydaları çərçivəsində yaşayaq. İndi bunun başqa yolu yoxdur. Bir daha demək istəyirəm ki, bu davranış qaydaları insanlara o qədər də əziyyət vermir. Sadəcə dediyim qaydalara əməl etmək və daha məsuliyyətli olmaq lazımdır.

Bu müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik. Mən bildirmişdim ki, keçən ay əldə edilmiş nəticələrdə kiçik də olsa, artım var - 0,2 faiz. Ancaq təxmin edirdim ki, beş ayın yekunları artıq tənəzzülü əks etdirəcək, belə də oldu. Mənə verilən məlumata görə, ümumi daxili məhsul beş ayda 1,7 faiz aşağı düşüb. Ancaq yenə də bir çox inkişaf etmiş ölkələrlə müqayisədə bizdəki tənəzzül çox kiçikhəcmlidir. Bununla paralel olaraq bildirməliyəm ki, sənaye istehsalı bir qədər artıb. Amma qeyri-neft sektorunda sənaye 14 faiz artıb. Kənd təsərrüfatı 3,6 faiz artıb. İnsanların orta əməkhaqqı 740 manata yaxınlaşıb. Bu, təqribən 430 dollardan çoxdur. İnflyasiya 3 faizdən aşağıdır, yəni proqnozlaşdırılmış səviyyədədir.

Ona görə, bütövlükdə, baxanda bizim iqtisadi fəaliyyətimiz də bu müddət ərzində çox uğurlu olub. Ancaq iqtisadiyyat tənəzzülə uğrasa da, bərpa ediləcəkdir, insanların həyatını isə bərpa etmək mümkün deyil. İnsanların həyatı qiymətsizdir. Ona görə bu günə qədər və bundan sonra bizim üçün əsas amil insanların təhlükəsizliyi, sağlamlığıdır. Artan dinamika, xəstələrin, yoluxanların artan dinamikası göstərir ki, yumşalma tendensiyası buna gətirib çıxarıb. Amma yenə də vəziyyət nəzarət altındadır. Burada əsas amil yoluxanların və sağalanların arasında olan nisbətdir. Bu günə qədər nisbət elədir ki, bizim səhiyyə sistemimiz bunu qəbul edə bilir. Bir çox ölkələrdə ölüm hallarının kütləvi xarakter almasının əsas səbəbi odur ki, o ölkələrdə səhiyyə sistemi çöküb. Yəni xəstələri qəbul edə bilmirlər və beləliklə, kütləvi ölüm halları müşahidə edilir. Bu gün mövcud səhiyyə imkanlarımız bizə tam imkan verir ki, vəziyyət nəzarət altında qalsın. Ancaq hər kəs bilməlidir ki, bu vəziyyəti biz qorumalıyıq. Qorumalıyıq və müsbət meyillərin artırılmasına çalışmalıyıq və çalışırıq.

Beynəlxalq müstəvidəki rolumuza gəldikdə, bildiyiniz kimi, Azərbaycan özünü çox məsuliyyətli aparır. Mən qeyd etdim ki, ilk növbədə, ölkə daxilində və beynəlxalq arenada bizim təşəbbüsümüzlə iki Zirvə görüşü keçirilibdir: Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşü. Bildirməliyəm ki, Qoşulmama Hərəkatının Zirvə görüşündə 120 ölkə təmsil olunub, eyni zamanda Afrika İttifaqı buna qoşulub, o İttifaqda 55 ölkə cəmləşibdir. Avropa İttifaqı ilk dəfə olaraq Qoşulmama Hərəkatının tədbirinə yüksək səviyyədə və ümumiyyətlə, ilk dəfə qoşulmuşdur. Avropa İttifaqında 27 ölkə var. Düzdür, Afrika İttifaqının bəzi ölkələri eyni zamanda Qoşulmama Hərəkatının üzvləridir. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan deyə bilərəm ki, tam məsuliyyətlə dünyanı birləşdirdi. Qəbul edilmiş bəyannamədə Azərbaycanın xüsusi rolu yüksək qiymətləndirilir. Əlbəttə ki, bizim onsuz da yüksək səviyyədə olan beynəlxalq imicimizə də bu, növbəti bir töhfədir. Azərbaycan liderlik göstərib.

Eyni zamanda biz Qoşulmama Hərəkatının üzvlərinə, ilk növbədə, müraciət edərək təklif etdik ki, BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyası keçirilsin. Bu dəstəyi biz aldıq, Qoşulmama Hərəkatının üzvləri bu təşəbbüsümüzü yekdilliklə dəstəklədilər və ondan sonra biz BMT Baş katibinə, - o, Qoşulmama Hərəkatının Zirvə görüşündə öz sözünü demişdi, müraciətini səsləndirmişdi, - müraciət etdik və indi cavab gözləyirik. Hesab edirəm ki, indiki şəraitdə dünya birliyinin bu məsələ ilə bağlı vahid mövqedən çıxış etməsi zəruridir. Bütün dünya birliyini birləşdirən təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. Ona görə biz belə təkliflə çıxış etdik və ümid edirik ki, bu, müsbət qarşılanar. İndi biz ikitərəfli və çoxtərəfli formatda məsləhətləşmələr aparırıq və əgər bu təklif qəbul olunarsa, onda bax, dediyim kimi, bir daha Azərbaycanın təşəbbüsü ilə dünya birliyi birləşib bu məsələ ilə bağlı öz sözünü deyəcək.

Ardı 3-cü səh.

# Prezident vətəndaşların sağlamlığını tam nəzarətində saxlayır

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 2-ci səh.*

Çünki burada əsas məsələ özünə qapanmamaqdır. Biz yaxşı xatırlayırıq ki, pandemiyanın ilkin dövründə bəzi ölkələr özlərinə qapandılar. Bəzi ölkələr humanitar məsələlərdə də özlərini elə apardılar ki, sonra yəqin utandılar. Bəzi ölkələr təşviş içində idi. Biz bəzən vəsaitlə aldığımız tibbi avadanlığı gətirməkdə çətinlik çəkirdik. Ona görə indiki şəraitdə hesab edirəm ki, dünya birliyi vahid mövqedən çıxış etməlidir. Bununla paralel olaraq, biz fərdi qaydada 14 ölkəyə humanitar yardım göstərdik. O ölkələr ki, buna onların ehtiyacı var və bizə müraciət etmişdilər. Eyni zamanda biz Ümumdünya Səhiyyə Təşkilatı xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstəririk. İndi bu proses gedir. Bu 15 ölkə Qoşulmama Hərəkatına üzv olan ölkələrdir. Ölkələrin siyahısı Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan tərəfindən razılaşdırılıb. Burada əsas meyar ən çox ehtiyacı olan ölkələrdir.

Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatına Azərbaycan fərdi qaydada iki dəfə ianə veribdir və beləliklə, Azərbaycan beynəlxalq təşkilat vasitəsilə 29 ölkəyə humanitar yardım göstərib. Mən indi bu məsələ ilə bağlı dünyada gedən prosesləri, mənzərəni izləyirəm və tam məsuliyyətlə deyə bilərəm ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır. Bax budur bizim ölkəmiz, budur müstəqilliyimizin üstünlükləri. Kimin ağlına gələ bilərdi ki, Azərbaycan bu bəla ilə təkbaşına, bu cür, belə məharətlə, peşəkarlıqla, təmkinlə, ləyaqətlə bacara bilsin. Hələ bəlkə 10 il, 20 il bundan əvvəl kimin ağlına gələrdi ki, Azərbaycan 30-a yaxın ölkəyə humanitar yardım göstərə bilər. O dövrdəki bəzi ölkələr indi o biri ölkələrə çatacaq humanitar yardımı da özlərinə, necə deyərlər, götürmüşdülər. Ona görə biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparırıq. Ona görə bizə olan rəğbət və hörmət gündən-günə artır.

Bütün bu məsələlərlə yanaşı, bir daha bundan sonrakı dövrə qayıtmaq istəyirəm. Azərbaycan vətəndaşları bizim bütün addımlarımızı dəstəkləyirlər. Halbuki aydın məsələdir ki, pandemiya insanların normal həyat tərzinə təsir edib, mənfi təsir edib. İnsanlar öyrəşdikləri həyat tərzindən müəyyən dərəcədə uzaqlaşıblar. Məhdudiyyətlər var, eyni zamanda artıq yeni məhdudiyyətlər də ortaya qoyulur. Ancaq Azərbaycan vətəndaşları bilirlər ki, bu məhdudiyyətlərin əsas səbəbi insanları qorumaqdır. İnsanları qorumaq üçün biz bütün addımları atacağıq. Ona görə bir daha Azərbaycan vətəndaşlarına bu dövr ərzində göstərdiyi dəstəyə görə göstərdiyi həmrəyliyə görə təşəkkür edirəm. Eyni zamanda bütün vətəndaşları bir daha böyük məsuliyyətə və nizam-intizama çağırıram. Biz birlik nümayiş etdirmişik və bundan sonra da nümayiş etdirəcəyik. Təsadüfi deyil ki, pandemiya dövründə "Biz birlikdə güclüyük!" birləşdirici şüar olmuşdur.




TƏBİB-in İdarə Heyətinin sədri **Ramin BAYRAMLI** dedi:

-Təşəkkür edirik, cənab Prezident. Bu gün açılışı gerçəkləşdirilən hər üç modul xəstəxanada çalışacaq tibbi heyətin nümayəndələri buradadırlar. İcazənizlə 28 saylı Birləşmiş Şəhər Xəstəxanasının tibbi heyəti adından Xuraman Cəfərova öz fikirlərini bildirsin.

**Xuraman CƏFƏROVA:** Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım.

Bu gün bizimlə bərabər olduğunuza görə Sizə təşəkkürümüzü bildiririk. COVID-19 pandemiyası ilə əlaqədar ölkəmizdə çox ciddi tədbirlər görülür. Xəstəxanalarımızın tibbi avadanlıqlarla və dərman vasitələri ilə təminatı biz həkimlərin işini asanlaşdırır. Həmçinin modul tibbi xəstəxanalar çox sürətlə hazırlanaraq istifadəyə verilir. Bu, öz növbəsində, çarpayı fondunu artırmaq məqsədilə tibbi xidmətin keyfiyyətini xeyli yüksəldir.

Biz hər gün xəstələrin nə qədər əziyyət çəkdiyini görürük və şahidi oluruq. Fürsətdən istifadə edib xalqımızı bu pandemiya dövründə daha diqqətli olmağa və qaydalara daha ciddi riayət etməyə çağırırıq.

Cənab Prezident, biz hər zaman Sizin diqqət və qayğınızı hiss edirik. Bu da bütün tibbi heyətdə ruh yüksəkliyi yaratmışdır. Ümid edirik ki, pandemiya tezliklə bitəcək və biz ölkə olaraq pandemiya üzərində qələbə qazanacağıq. Diqqətiniz və qayğınız üçün Sizə bir daha təşəkkürümüzü bildiririk.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Təşəkkür edirəm.

**Ramin BAYRAMLI:** Cənab Prezident, digər modul xəstəxanaların açılışında iştirak edən tibbi heyətlər videokonfransla bizə qoşulublar. Sumqayıt 1 saylı Şəhər xəstəxanasından həkimi Şəhla Hacıyeva, buyurun.

**Şəhla HACIYEVA:** Möhtərəm cənab Prezident və dəyərli Mehriban xanım.

Əvvəlcə, Sizi salamlayırıq. Bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə çox təşəkkür edirik.

Üç aydan çoxdur ki, biz amansız düşmənlə mübarizə aparırıq. Bu düşmənin gözəgörünməz olması bir çoxlarında elə bir təəssürat yaradır ki, o yoxdur. Bununla da onlar özlərinin və yaxınlarının sağlamlığını təhlükə altına atırlar. Bu ağır günlərdə Sumqayıt şəhərində müasir avadanlıqlarla təchiz olunmuş modul tipli xəstəxananın yaradılması əlamətdar hadisədir. Biz Azərbaycan həkimləri bütün həmkarlarımızla birlikdə bu mübarizəyə qoşulmuşuq. Bütün dünyada olduğu kimi, sağalmış xəstələrdən alınmış plazmanı ağır xəstələrin müalicəsində uğurla tətbiq edirik. Fürsətdən istifadə edərək Sizin köməyinizlə sağalmış xəstələrə müraciət edirik ki, öz plazmalarını bəxş etsinlər və sözün əsl mənasında, həyat qurtarsınlar.

Sizin və çox hörmətli Mehriban xanımın koronavirusla mübarizə tədbirlərini şəxsi nəzarətinizdə saxlamağınız və düzgün istiqamət verməyiniz sayəsində biz Azərbaycan həkimləri tezliklə bu mübarizədən qalib çıxacağımıza inanırıq. Sizə təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Bilirsiniz ki, Sumqayıt şəhərinə mən daim böyük diqqət göstərirəm və Prezident kimi dəfələrlə Sumqayıtda olmuşam, orta hesabla minimum ildə iki dəfə, bəzi illərdə daha da çox. Sumqayıtın sənaye potensialının inkişafı bu gün göz qabağındadır. Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və eyni zamanda müasir sənaye şəhəridir. Çünki bildiyiniz kimi, - yaşlı nəsil bunu yaxşı bilir, - əvvəlki dövrdə Sumqayıtda çox çətin ekoloji vəziyyət mövcud idi. Bu gün yeni istifadəyə verilmiş bütün müəssisələr yüz faiz ekoloji standartlara cavab verir. Buna görə Sumqayıtda indi ekoloji vəziyyət çox yaxşılaşıb və hava da təmizdir. Sumqayıt bu gün parklar, bağlar şəhəridir, yaşıllaşdırma işləri gedir. İndi insanları narahat edən və ekoloji problem yaradan Acıdərə kanalı da təmizlənir. Buraya da böyük vəsait ayrılır. Bununla paralel olaraq, şəhər infrastrukturu yeniləşir, o cümlədən sosial obyektlər inşa edilir. 1 saylı Şəhər xəstəxanasının əsaslı təmirindən sonra, əlbəttə ki, vəziyyət daha da yaxşılaşıb.

Mənim göstərişimlə hazırda 2 saylı xəstəxananın tikintisi gedir. İlkin mərhələdə belə təklif olundu ki, o təmir edilsin. Amma sonra mənə verilən məlumata görə, bu, mümkünsüz olub və demək olar ki, xəstəxana yenidən tikiləcək. Bu, bir daha onu göstərir ki, vaxtında görülmüş işlər ən böhranlı dövrdə bizə lazım ola bilər. Bildiyiniz kimi, bütün ölkə üzrə yeni xəstəxanaların tikintisi, demək olar ki, başa çatır, bəlkə bir, ya iki şəhərdə hələ ki, istifadəyə verilməyib, amma o da nəzərdə tutulur. Beləliklə, ölkəmizin hər bir şəhərində müasir tibb müəssisəsi var, özü də mərkəzi rayon xəstəxanası səviyyəsində, eyni zamanda 20-yə yaxın müalicə-diaqnostika mərkəzi. İlk növbədə, əgər bu infrastruktur olmasaydı, biz indi icbari tibbi sığorta sisteminə keçə bilməzdik. Çünki bunun əsas şərti mövcud infrastrukturun müasir səviyyədə olmasıdır.

Bildiyiniz kimi, biz bu ilin əvvəlindən ölkə üzrə tam icbari tibbi sığortaya keçməli idik, ancaq pandemiya planlarımıza müdaxilə etdi. Biz indi bir neçə pilot layihəni icra edərək gördük ki, bunun üstünlüyü nədən ibarətdir və vətəndaşlar da gördülər. Ona görə gələn ilin əvvəlindən artıq ölkə üzrə icbari tibbi sığortaya tam keçid nəzərdə tutulur. Bir daha demək istəyirəm ki, əgər biz bu tibb ocaqlarını vaxtında tikməsəydik, indi xəstələri müalicə etmək mümkün olmazdı. Baxın, indi 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə olunur, bölgələrdə yeni tikilmiş bütün xəstəxanalarda. Əgər bu olmasaydı, harada müalicə olunacaqdı? Bakı şəhərində ən çox harada müalicə olunur: Tibb Universitetinin Cərrahiyyə Klinikasında və Tibb Universitetinin Tədris-Terapevtik Klinikasında. Ən çox müalicə olunan xəstələr oradadır. Yeni Klinikada 575 çarpayı mövcuddur. Bizim digər təmir edilmiş, yaxud da yenidən tikilmiş klinikalardır və bütün klinikalar tibbi avadanlıqla təmin olunub. Son illərin istehsalı, aparıcı şirkətlərin istehsalı olan avadanlıq bizə imkan verir ki, istənilən xəstənin müalicəsini təmin edək. Ona görə, bax, bu görülmüş işlərdir və son 16 il ərzində, bütövlükdə, 700-dən çox tibb müəssisəsi ya yenidən tikilib, ya da əsaslı təmir edilib. Bu, güclü sosial səhiyyə infrastrukturu bizə imkan verdi ki, bu vəziyyətdən də şərəflə çıxaq. Biz iki min əlavə çarpayını ona görə yaradırıq ki, bu, bir ehtiyat olsun, Allah eləməsin, bu xəstəlik daha geniş yayılsa, bizim imkanımız olsun. Lazım olarsa, əlavə 10 xəstəxana da tikərik. Yəni bu məqsədlər üçün biz istənilən vəsaiti tapa bilərik və tapırıq.

Bu dövr ərzində bir daha demək istəyirəm ki, Azərbaycan beynəlxalq arenada siyasi cəhətdən özünü güclü dövlət kimi göstərdi, iqtisadi sahədə güclü dövlət kimi göstərdi, sosial sahədə güclü dövlət kimi göstərdi. Göstərdi ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur. Onu da bildirməliyəm ki, bu dövr ərzində aparıcı beynəlxalq maliyyə qurumlarının hesablamalarına görə, 150-dən çox ölkə beynəlxalq maliyyə qurumlarına yardımla bağlı müraciət edib. Azərbaycanın adı bu siyahıda yoxdur. Biz heç kimdən yardım almırıq, heç kimdən yardım istəmirik, biz kredit istəmirik. Ancaq yüksək texnoloji layihələrin həyata keçirilməsi üçün kredit ala bilərik, bizə məqbul olan şərtlərlə. Ona görə bütün parametrlər üzrə Azərbaycan liderlik göstərib. Bu liderlik artıq regionumuzun çərçivələrindən çoxdan çıxıb.

Saray qəsəbəsində işləyən həkimlər, buyurun.

Həkim **Nərmin VERDİYEVA:** Hörmətli cənab Prezident və çox dəyərli Mehriban xanım.

Öncə bütün Azərbaycan həkimləri adından bizə göstərdiyiniz qayğı və yaratdığınız şərait üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Artıq hər birimiz bilirik ki, bütün dünya ölkələri kimi, Azərbaycan da koronavirus pandemiyası ilə mübarizə aparır. Ölkəmizin bir sıra tibb müəssisələrində koronavirus pandemiyası ilə mübarizə aparmaq məqsədilə xüsusi şərait yaradılmışdır, xüsusi tibbi avadanlıqlarla təchiz edilmiş, dərman preparatları ilə təmin olunmuşdur. Modul tipli xəstəxanalar da məhz bu xəstəxanalardandır. Sizin təşəbbüsünüzlə inşa edilmiş və ən qısa zamanda biz həkimlərin ixtiyarına verilən modul tipli xəstəxanalar həm bugünkü vəziyyətdə, həm də gələcəkdə bir sıra xəstəliklərlə mübarizə apararkən təcili və təxirəsalınmaz tibbi yardımlar göstərmək üçün biz həkimlərə geniş imkanlar yaradıb. Sizin də qeyd etdiyiniz kimi, koronaviruslu xəstələrlə çalışarkən biz xüsusi fərdi kostyumlardan istifadə edirik. Yay fəslinin gəlməsi, havaların isinməsi bu kostyumlarda çalışmağı bir az çətinləşdirir. Lakin əmin ola bilərsiniz ki, bütün bu çətinliklərə baxmayaraq, Sizin dəstəyinizlə biz gecə-gündüz çalışaraq pandemiya ilə mübarizə aparıb, bu çətin sınaqdan ən uğurlu şəkildə çıxacağıq.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Mən bir daha həkimlərin fəaliyyətini qiymətləndirmək istərdim. Mən, Azərbaycan dövləti, Azərbaycan xalqı bu dövrdə gördük ki, həkimlər içdikləri Hippokrat andına sadiqdir, öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Həkimlərin arasında yoluxanlar da var və onlar öz həyatını risk altına ataraq xəstələri müalicə edir, onları həyata qaytarırlar. Təsadüfi deyil ki, mənim təşəbbüsümlə ölkəmizin və şəhərimizin yeni simvollarından biri olan Alov qüllələrində məşhur şüar əks olunmuşdur: Azərbaycan həkimlərinə eşq olsun!

Bir daha bunu demək istəyirəm, Azərbaycan həkimlərinə eşq olsun və ayaq üstə Azərbaycan həkimlərini alqışlamaq istəyirəm. Sağ olun.








# "Sizin düşünülmüş, uzaqgörən siyasətiniz sayəsində Azərbaycan çox uğurlar əldə edib, çətinliklərə sinə gərib"

*Əvvəli 1-ci səh.*

Siz COVID-19 pandemiyası dövründə böyük fədakarlıq göstərərək, insanların həm maddi, həm də mənəvi ehtiyaclarının ödənilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində uğurlu işlər görürsünüz. Siz koronavirusun yayılmasının ilk günündən başlayaraq vətəndaşların yanındasınız, onlara kömək göstərirsiniz. Cənab Prezident, bir daha əmin olduq ki, ən çətin günlərdə güvənə biləcəyimiz rəhbərimiz var. Azərbaycan xalqı Sizi daim dəstəkləyir. Allah Sizi və xalqımızı qorusun!"

Mingəçevir şəhərindən **Azər Mahmudov:** "Çox hörmətli Prezident, cənab Ali Baş Komandan, hətta dünyanın ən inkişaf etmiş dövlətlərinin belə mübarizə aparmaqda çətinlik çəkdikləri bu xəstəliyin sürətlə yayıldığı bir vaxtda Sizin uzaqgörən siyasətiniz və düzgün qərarlarınız nəticəsində Azərbaycan xalqı əmin-amanlıq içərisində yaşayır. Buna görə ailəmizin adından Sizə təşəkkür edirəm. Əlbəttə, Sizə nə qədər təşəkkür etsək, yenə də azdır. Bu sözləri böyük qürur hissi ilə yazıram. Sizinlə fəxr edirik. Allah Sizi qorusun!"

Şəmkir şəhərindən **Sabir İbrahimov** və **Rahilə İbrahimova** yazırlar: "Çox hörmətli cənab Prezident, bəşəriyyəti çənginə almış qorxunc pandemiya ilə mübarizədə tibbin ən inkişaf etdiyi ölkələrin aciz qaldığı, bəzi dövlətlərin bu virusa biganə yanaşdığından çətin vəziyyətə düşdüyü halda, Sizin əsl vətəndaşlıq nümunəsi göstərərək xalqın yanında olmağınız bizləri qürurlandırır. Əhalinin sağlamlığının qorunmasının ön plana çəkilməsi, Sizin uzaqgörən siyasətinizlə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi bu pandemiyadan daha az itkilərlə çıxmağımıza zəmin yaradıb. Möhtərəm cənab Prezident, Sizin ölkəmizi COVID-19 virusundan qorumaq üçün atdığınız hər addımınızı bir ailənin iki həkim üzvü olaraq alqışlayır və xalqımızın sağlamlığı naminə verdiyiniz tapşırıqları səngərdəki bir əsgər kimi hər zaman sevə-sevə yerinə yetirəcəyimizə söz veririk.

Siz, həqiqətən, vətəndaşı onun özündən daha çox düşünürsünüz. Əziz və qayğıkeş Prezidentimiz, Şəmkir sakinləri də Sizə - qəlbi daim xalqı ilə döyünən rəhbərə hər zaman dəstək olacaqlar. Biz fəxr edirik, qürur hissi keçiririk ki, Sizin kimi Prezidentimiz var. Uca Tanrı Sizi qorusun!"

Lənkəran şəhərindən **Sehran Şükürov, Ceyhun Rzayev, Səxavət Bağırov, Azər Abdullazadə** və **Ceyhun Cəfərov** yazırlar: "Əziz Prezidentimiz, Sizin Lənkərana göstərdiyiniz doğma münasibətiniz biz sakinlərə hədsiz qürur verir. Fəxr edirik ki, Sizin kimi müdrik, qayğıkeş dövlət başçımız var. Sizin tapşırıqlarınıza uyğun olaraq, şəhərimizin küçələrində asfaltlama işləri aparılır. Bizim yaşadığımız Füzuli, Kələntərlilər, Vaqif Nağıyev küçələri də asfaltlanıb və abadlaşdırılıb. Sizin qayğınız sayəsində indi Lənkəran şəhərinin hər tərəfi səliqəli, təmiz görünür. Cənab Prezident, bu işlər, bu qayğı könlümüzü açır, belə bir vaxtda bizə ruh verir. Biz Sizdən çox razıyıq. Allah Sizdən razı olsun!"

Ağcabədi rayonunun Cəfərbəyli kəndindən müəllim **Səbuhi Atakişiyev:** "Hörmətli cənab Prezident, dünyanı çənginə alan COVID-19 pandemiyası təəssüf ki, Azərbaycandan da yan keçmədi. Sizin rəhbərliyinizlə dövlət və hökumət orqanları tərəfindən görülən ardıcıl və səmərəli tədbirlər nəticəsində ölkə vətəndaşlarının bu təhlükəli virusa yoluxma riskini minimuma endirmək mümkün oldu. Cənab Prezident, bu həssas dönəmdə xalqla həmrəy olduğunuza, ən başlıcası isə Ağcabədi rayonuna yeddinci dəfə səfər etdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Rayonumuzda "ASAN xidmət" mərkəzinin açılışında könüllülər qarşısında məzmunlu çıxışınızı yüksək dəyərləndiririk. Biz gənclər hesab edirik ki, Sizin Qarabağ torpaqlarına hər gəlişiniz bizi işğal edilmiş ərazilərimizin geri qaytarılmasına səsləyir. Hörmətli cənab Prezident, Sizin "Biz birlikdə güclüyük!" çağırışınız bu gün xalqımızın həmrəylik şüarına çevrilib. Biz Sizə inanır, güvənir və arxalanırıq. Tanrı Sizi qorusun!"

Bakı şəhərindən **Elşən Əlizadə:** "Hörmətli cənab Prezident, Sizin prezidentliyiniz dövründə Azərbaycan çoxlu sayda uğur əldə edib, ölkəmiz dünyanın inkişaf etmiş dövlətləri arasında öz layiqli yerini tutub, iqtisadi, siyasi sferalarda, xüsusilə də sosial sahədə mühüm nailiyyətlər əldə edilib, iqtisadi çətinliklərin öhdəsindən mətinliklə gəlib. Bu gün COVID-19 virusunun bütün dünyaya yayılaraq kütləvi insan tələfatına gətirib çıxardığı bir zamanda Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqımızı bu təhlükədən qorumaq məqsədilə uzaqgörənliklə gördüyünüz bütün tədbirləri bəyənir və dəstəkləyirik. Son illərdə Sizin rəhbərliyinizlə ölkəmizdə əldə edilən nailiyyətlər göz önündədir. Biz xalq olaraq keçmişi də görmüşük, bu günü də görürük. Əlbəttə ki, fərq çox böyükdür. 1990-cı illərin əvvəllərində ölkəmizdə hökm sürən xaosu, özbaşınalığı indi tərəqqi, yüksək rifah əvəzləyib. Bunu xarici ölkələrin dövlət və ictimai xadimləri dəfələrlə qeyd edib, nüfuzlu beynəlxalq təşkilatların hesabatları göstərib. Azərbaycanda hökm sürən iqtisadi sabitlik, əmin-amanlıq, dini, milli-mənəvi dəyərlərə göstərilən qayğı nəticəsində möhkəmlənən tolerant mühit digər dövlətlərə nümunədir. Müstəqil Azərbaycan dövlətinin siyasətini, buradakı əmin-amanlığı bəyənməyən, düşmən dəyirmanına su tökən, onların və Azərbaycanda böhran, tənəzzül, qarşıdurma yaratmağa çalışan qüvvələrin maliyyə resurslarından bəhrələnən bu ünsürlər ən böyük nifrətə layiqdirlər".

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltiflərin və mükafatların təqdimatı olub

Ulu Öndər Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanın qurtuluş tarixidir. "Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur", - deyən Ümummilli Liderimizin müəyyənləşdirdiyi inkişaf strategiyası bütün sahələrdə kompleks islahatların həyata keçirilməsinə səbəb olub. Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikasında da dahi şəxsiyyətin yolunun uğurla davam etdirilməsi yüksək inkişaf göstəriciləri - sabitlik, rifah və insan amilinə verilən dəyərlə xarakterizə olunur. Öz sahələrində fərqlənənlərin əməyinin qiymətləndirilməsi də bu tədbirlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 9-da - Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının "Hərbi xidmətlərə görə" medalının və Prezident mükafatlarının təqdimat mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları və mükafat alanları təbrik edərək deyib: "Təltif olunmaq fərqlənmək deməkdir. O şəxslər fərqlənir ki, onlar başqalarından daha çox səy göstərir, çalışır və öz işlərini nümunə səviyyəsinə yüksəldirlər. Təltiflər və Prezident mükafatları əlamətdar bir gündə təqdim olunur. 1993-cü il iyunun 9-da Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının, o cümlədən ziyalıların tələbi ilə Naxçıvandan Bakıya qayıtmış, iyunun 15-də isə Azərbaycan Ali Sovetinin Sədri seçilmişdir. Bununla da 15 iyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Belə bir əlamətdar gündə təltif və mükafatların təqdim olunması ölkəmizdə uğurla davam etdirilən Heydər Əliyev siyasətinin bəhrəsidir. Bu gün Azərbaycan inkişaf edir. Ölkəmizdə sabitlik və rifah var, fərqlənənlərin əməyi qiymətləndirilir. Bu nümunəni əsas götürən hər bir şəxs isə dövlətinə, xalqına və işinə sədaqətli olur, öz vəzifələrini layiqincə yerinə yetirir"

Ali Məclisin Sədri təltif olunanları qarşıdan gələn 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edib.

Sonra Ali Məclisin Sədri medalları və Azərbaycan Respublikası Prezidentinin mükafatlarını təqdim edib.

Prezident mükafatına layiq görülən Vüsal Rzayev, Cahangir Qurbanov, İbad Nəbiyev, Ceyhun Süleymanlı əməklərinə verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlıq ediblər. Prezident mükafatçıları bütün sahələrdə əldə edilən nailiyyətlərin uğurla həyata keçirilən Heydər Əliyev siyasi xəttinin nəticəsi olduğunu vurğulayıb, bundan sonra da ölkəmizin inkişafı və tərəqqisi naminə səylə çalışacaqlarına söz veriblər.

# İlham Əliyevin tarixi xidmətləri

## İrəvanın ermənilərə verilməsi ilə bağlı əsl həqiqətlər

> “Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, Azərbaycan Demokratik Respublikası nə üçün onda qərar qəbul edib ki, İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Müstəqillik 1918-ci il mayın 28-də elan edilib. 1918-ci il mayın 29-da isə qərar qəbul edilib, özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olubdur, amma onların rəyi nəzərə alınmayıb. Azərbaycan Demokratik Respublikası tərəfindən qərar qəbul edilib ki, İrəvan Ermənistana bağışlanılsın, verilsin. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz. Hər kəs bunu bilsin. Guya ki, bundan sonra Ermənistan Azərbaycana qarşı digər iddialarından əl çəkəcəkdi. Amma əl çəkdimi? Yox!”
>
> ***Prezident İlham Əliyevin***
> ***Tərtər Olimpiya İdman Kompleksinin açılışındakı çıxışından***
> ***3 iyun 2020-ci il***




İRƏVAN XANLIĞI (XVIII əsrin II yarısı)




AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918-1920-ci illər)

Prezident İlham Əliyevin Tərtərdəki çıxışı Azərbaycan tarix elminin inkişafı ilə bağlı yeni istiqamətlər müəyyənləşdirdi. Xüsusilə ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsindən sonra burada baş verən proseslər diqqətdə olacaq. Bu məsələlər həmişə dövlət başçısının gündəlik nəzarətindədir. Tarix İnstitutunun direktoru olaraq bütün xalqımıza bəyan edirəm ki, 2004-cü ildə bu institutun rəhbərliyinə gələndə dövlət başçısı tərəfindən qarşımıza bir sıra ciddi məsələlər qoyuldu. Əgər bu gün İrəvan məsələsi ilə bağlı konseptual baxışımız varsa, o, Azərbaycan Prezidentinin xidmətidir! İrəvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərə verilib. Və İrəvanın onlara heç bir aidiyyəti yoxdur, bu şəhər qədim Azərbaycan şəhəridir. Ermənilər bu ərazilərə XIX əsrin əvvəllərində köçürülüblər. Eyni zamanda qarşımıza qoyulan vəzifələr sırasında İrəvan, Qarabağ və Naxçıvanın tarixinin yenidən yazılması, erməni vandalizminin araşdırılması da var idi. Bütün bunların hamısı Azərbaycan Prezidentinin millətimiz və tarix elmi qarşısında konseptual xidmətləridir. Əgər “Qarabağ: real tarix, faktlar, sənədlər” mövzusunda fundamental əsər yazılıbsa, bu, dövlət başçısının xidmətidir və onun tapşırığı ilə yazılıb. İrəvanın tarixinin qələmə alınması Prezidentin birbaşa göstərişi ilə olub və dünya dillərinə tərcümə edilib, yayılıb. Yeri gəlmişkən deyim ki, Naxçıvanla əlaqədar ermənilərin iddiaları ilə bağlı dövlət başçısı tapşırıq verdi və “Naxçıvan: tarixi və abidələri” adlı əsər meydana gəldi. Bu problemlər ətrafında yazılan silsilə əsərlərə görə Prezident bir sərəncamla Tarix İnstitutunun 13 nəfər alimini Azərbaycanın Dövlət Mükafatına layiq gördü. Bunlar onu göstərir ki, Prezident İlham Əliyev tarix elminin zərgər kimi bilicisidir və ərsəyə gələn elmi araşdırmalar bilavasitə onun prinsipial mövqeyinin nəticəsidir. Ulu Öndər Heydər Əliyev bu işləri başlatdı və zamanın tələbinə uyğun olaraq İlham Əliyev onu yaradıcılıqla davam etdirir.

Prezident İlham Əliyev real tarixi həqiqətlərə və ilk mənbələrə əsaslanaraq dəfələrlə bütün dünyaya birmənalı şəkildə və qətiyyətlə bəyan edib ki, ermənilər Azərbaycan Xalq Cümhuriyyətinin onlara verdiyi İrəvan və ətrafını əhatə edən Azərbaycan torpaqlarında bir dəfə özlərinə dövlət yaradıblar. Azərbaycan öz ərazisində təcavüzkar Ermənistana ikinci erməni dövləti yaratmağa imkan verməyəcəkdir! Dövlət başçısının tövsiyə və tapşırıqları əsasında Tarix İnstitutunda bu istiqamətdə aparılan tədqiqatlar daha da genişləndirilmiş, İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının ermənilərə verilməsi ilə bağlı bir sıra yeni sənədlər və maraqlı faktlar aşkar olunmuşdur.

Tarix İnstitutunda Azərbaycan Xalq Cümhuriyyətinin tarixini araşdıran ayrıca şöbə fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrindən Cümhuriyyət tarixinə dair ilk mənbələr və arxiv sənədləri ölkəmizə gətirilir. Cümhuriyyət tarixinə dair çoxsaylı sanballı əsərlər, o cümlədən ikicildlik ensiklopediya nəşr edilib. Elmi müəssisədə aparılmış tədqiqatlar nəticəsində sübut edilib ki, 1918-ci ilə qədər Cənubi Qafqazda heç zaman erməni dövləti olmayıb. Həmçinin institutun Elmi Şurasının qərarı ilə İrəvanın ermənilərə verilməsi məsələsinə həsr olunan “Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququ bərpa olunmalıdır” adlı kitab (Azərbaycan, rus və ingilis dillərində) çap olunub.

Prezidentin İrəvanın verilməsi ilə bağlı fikirləri real tarixi faktlara, tarixi həqiqətə əsaslanıb: “Əlbəttə ki, biz heç vaxt unutmamalıyıq ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri İrəvanı, bizim qədim şəhərimizi Ermənistana vermək idi. Bunu heç cür əsaslandırmaq və heç vaxt bağışlamaq olmaz”.

Sənədlər sübut edir ki, erməni tərəfi Batum danışıqları və müqavilələrinə (11 may - 4 iyun 1918-ci il) əsasən İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının onlara verilməsi müqabilində üzərinə bir sıra öhdəliklər götürmüşdü. Lakin ermənilər məqsədlərinə nail olduqdan sonra üzərlərinə götürdükləri bütün öhdəlikləri birtərəfli qaydada pozmuş, işğalçılıq siyasətini davam etdirmişlər. Beləliklə, İrəvan və ətrafındakı Azərbaycan topraqlarının ermənilərə verilməsi barədə həm Batum müqavilələrinin müvafiq maddələri, həm də Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı öz hüquqi qüvvəsini itirib.

İrəvanın ermənilərə verilməsi ilə bağlı arxiv sənədlərinin təsdiq etdiyi tarixi həqiqət belədir:

Çar Rusiyasında mütləqiyyətin devrilməsindən sonra yaranmış Zaqafqaziya Demokratik Federativ Respublikası 1918-ci il mayın 26-da süqut etdi. Bununla Cənubi Qafqazda müstəqil yerli dövlətlərin formalaşması prosesi başlandı. Həmin dövrdə Cənubi Qafqazda yalnız iki yerli (aborigen) xalqın - azərbaycanlıların və gürcülərin dövləti yaradıla bilərdi. Çünki ancaq bu iki xalqın müstəqil dövlət yaratmaq üçün tarixi etnik - ərazi bazaları vardı. Və ancaq bu iki xalq - azərbaycanlılar və gürcülər Cənubi Qafqazda dövlətçilik ənənələrinə malik idilər.

XIX əsrdə Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən çar Rusiyası tərəfindən Osmanlı İmperiyasından və Qacarlar İranından Cənubi Qafqaza köçürülüb gətirilmiş və əsasən Azərbaycan torpaqlarında yerləşdirilmiş ermənilərin isə dövlət yaratmaq üçün burada - Cənubi Qafqazda ərazi bazaları yox idi. Beləliklə, Cənubi Qafqaz ərazisində erməni dövləti ancaq bu regionun yerli xalqları olan azərbaycanlıların və gürcülərin torpaqları hesabına yaradıla bilərdi.

Birinci Dünya müharibəsini aparan hərbi blokların hər ikisinin, həm Antantanın (Çar Rusiyası, İngiltərə, Fransa, ABŞ), həm də Almaniya-Osmanlı blokunun üzvləri arasında ermənilərə dövlət yaratmaq barədə ümumi fikir formalaşmışdı. Çar Rusiyası, İngiltərə, Fransa və ABŞ gələcək erməni dövlətinin Osmanlı İmperiyası ərazisində - Şərqi Anadoluda yaradılmasına tərəfdar idilər. Osmanlı İmperiyasının bəzi siyasi dairələri isə “erməni təhlükəsi”ni özündən, yəni Şərqi Anadoludan uzaqlaşdırmaq üçün erməni dövlətinin imperiya sərhədləri xaricində - Azərbaycan torpaqlarında yaradılmasına çalışırdılar.

Azərbaycan tərəfinin real olaraq, həm böyük dövlətlərin təzyiqlərinə, həm də ölkənin bütün ərazilərində soyqırımları həyata keçirən daşnak-erməni silahlı birləşmələrinə və onların arxasında duran dövlətlərə hərbi müqavimət göstərmək gücü yox idi. Buna görə də Azərbaycan milli hərəkatının xadimləri ermənilərə dövlət yaratmaq məsələsində Osmanlı dövlətinin bəzi siyasi dairələrinin diktəsi ilə hərəkət edirdilər, daha doğrusu, buna məcbur idilər.

Yaranmış tarixi şəraitdə Azərbaycan tərəfi, yəni Zaqafqaziya Seyminin Azərbaycan fraksiyasının nümayəndələri ermənilərə dövlət yaratmaqdan ötrü hansı Azərbaycan torpaqlarının verilməsini müəyyən etmək üçün Osmanlı dövlətinin vasitəçiliyi ilə erməni tərəfi ilə danışıqlara girdi. Danışıqlar Batum konfransı (11 may - 4 iyun 1918-ci il) çərçivəsində və konfransda iştirak edən Osmanlı nümayəndə heyətinin vasitəçiliyi ilə aparıldı.

Batum danışıqlarının lap başlanğıcındaca məlum oldu ki, həqiqətən də, Osmanlı dövlətinin bəzi siyasi dairələri “erməni təhlükəsi”ni özündən uzaqlaşdırmaq üçün gələcək erməni dövlətinin Azərbaycan ərazisində yaradılması siyasətini yeridirlər. Bununla bağlı olaraq Batum konfransında aparılan danışıqların gedişi barədə danışıqlarda iştirak edən Azərbaycan nümayəndə heyətinin üzvü Nəsib bəy Usubbəyov Zaqafqaziya Seyminin sabiq üzvlərinin 27 may 1918-ci il tarixli fövqəladə iclasında məlumat verdi. Batumdan yenicə qayıdan Nəsib bəy Usubbəyov fövqəladə iclas iştirakçılarına bildirdi ki, “Osmanlı nümayəndə heyətinin fikrinə görə Zaqafqaziyanın tərəqqisi üçün ən başlıca təminat Zaqafqaziya xalqlarının həmrəyliyi və birliyidir ki, buna nail olmaq üçün Azərbaycan tərəfi ermənilərə müəyyən qədər ərazi güzəştə getməlidir”.

Onu da qeyd etmək lazımdır ki, Osmanlı dövlətinin hakim siyasi dairələrində Cənubi Qafqazda erməni dövləti yaradılması məsələsində fikir ayrılığı vardı. Sədrəzəm Tələt paşa və hərbi nazir Ənvər paşa Cənubi Qafqazda erməni dövləti yaradılmasının əleyhinə idilər və bu məsələdə “çibanı kökündən təmizləmək” tərəfdarı idilər. Bu mümkün olmadıqda “ermənilərin çox zəif və yaşaya bilməyəcək bir dövlət şəklində təşəkkül etməsini” təklif edirdilər. Lakin Tələt paşa və Ənvər paşadan fərqli olaraq, Batum danışıqlarında Osmanlı nümayəndə heyətinə başçılıq edən Dövlət Şurasının sədri və Ədliyyə naziri Xəlil bəy Menteşə və Osmanlı Orduları Qafqaz Cəbhəsinin komandanı Ferik Mehmed Vehib paşa Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına ermənilərə dövlət yaratmaq tərəfdarı idilər. Onlar güman edirdilər ki, bununla ermənilər həm Anadoludan uzaqlaşdırılacaq, həm Osmanlı-erməni münasibətləri biryolluq nizama salınacaq, həm də “erməni məsələsi” ilə bağlı Osmanlı dövlətinə qarşı beynəlxalq qınağa son qoyulacaqdır.

Yeri gəlmişkən, Azərbaycan tərəfi də Tələt paşa və Ənvər paşanın “çibanı kökündən təmizləmək” siyasətinin əleyhinə idi və “kiçik bir erməni kantonunun” yaradılmasını təklif edirdi. Belə bir təkliflə Batumda danışıqlar aparan Azərbaycan nümayəndələri Məmməd Həsən Hacınski və Məhəmməd Əmin Rəsulzadə hələ 1918-ci il mayın 23-də Ənvər paşaya xüsusi müraciətnamə göndərmişdilər. Həmin müraciətnaməni onlardan başqa Əhməd bəy (Can Baba), Aslan bəy Səfikürdski, Əhməd bəy Pepinov, Məmməd Yusif Cəfərov, Fətəli xan Xoyski, Nəsib bəy Usubbəyov və Xəlil bəy Xasməmmədov da imzalamışdılar. Eyni təkliflə bundan bir gün əvvəl - 1918-ci il mayın 22-də Tələt paşaya və Ənvər paşaya Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu da müraciət etmişdilər.

Azərbaycan tərəfi belə bir təkliflə çıxış edərkən inanırdı ki, bu güzəşt müqabilində, yəni ermənilərə Azərbaycan torpaqları hesabına “kiçik bir kanton” yaradılacağı halda ermənilərin Osmanlı ərazilərindən Azərbaycan torpaqlarına, o cümlədən Bakıya axınının qarşısı alınacaq, ermənilər Azərbaycan xalqına qarşı soyqırımlarını dayandıracaqlar və bir daha ölkəmizə qarşı ərazi iddiaları irəli sürməyəcəklər. Azərbaycan tərəfi güman edirdi ki, bu addım, həm də böyük dövlətlər tərəfindən rəğbətlə qarşılanacaqdır.

Beləliklə, Azərbaycan tərəfi Cənubi Qafqazda - Azərbaycan ərazisində ermənilərə “kiçik bir kanton” və ya “kiçik bir dövlət” yaradılmasına tərəfdar idi və bu məsələdə Xəlil bəy və Vehib paşa eyni mövqedən çıxış edirdi.

Azərbaycan tərəfinin ermənilərə Azərbaycan torpaqlarında dövlət yaradılması barədə yuxarıda göstərilən mövqeyi və bunun üçün konkret ərazi vermək təklifi Batum danışıqlarının gedişinə ciddi təsir göstərdi.

Bununla da Batumda faktiki olaraq, ermənilərə dövlət yaratmaq üçün hansı Azərbaycan torpaqlarının verilməsi ətrafında danışıqlar aparıldı.

Batum danışıqları zamanı ermənilərin özlərinə mərkəz kimi iddia etdikləri Qars və Gümrü (Aleksandropol) artıq Osmanlı hərbi qüvvələri tərəfindən zəbt olunmuşdu və Osmanlı tərəfi bu şəhərlərdən hər hansı birinin danışıqlar mövzusu olmasına imkan vermədi. Beləliklə, İrəvan məsələsi gündəmə gətirildi. Ənvər paşa “çibanı kökündən təmizləmək” planının baş tutmadığını görcək ermənilərə veriləcək torpağın Azərbaycan və Osmanlı əraziləri arasında bir ada kimi əhatəyə alınması təlimatını verdi.

Danışıqlar zamanı Azərbaycan ərazisində dövlət yaratmaq üçün ermənilərə torpaq veriləcəyi halda erməni tərəfi Azərbaycan və Osmanlı tərəfləri qarşısında bir sıra öhdəliklər yerinə yetirməyi üzərinə götürdü. Həmin öhdəliklər aşağıdakılar idi:

1. Ermənilərlə müsəlmanlar arasında düşmənçilik aradan qaldırılacaq və erməni tərəfi Şaumyanla əlaqəyə girib Bakının müsəlman əhalisinin təhlükəsizliyini təmin edəcək, bununla azərbaycanlılara qarşı kütləvi qırğınların qarşısı alınacaqdır. Erməni tərəfinin üzərinə götürdüyü bu öhdəlik Osmanlı İmperiyası ilə yenicə yaradılmış Ararat (Ermənistan) Respublikası arasında 1918-ci il iyunun 4-də Batumda bağlanmış “Sülh və Dostluq” müqaviləsində təsbit olundu. Batum müqaviləsinin 11-ci maddəsinə əsasən Ermənistan Respublikası hökuməti erməni silahlı qüvvələrinin tez bir zamanda Bakıdan çıxarılması üçün bütün qüvvələrini səfərbər edəcəyini öhdəsinə götürdü. Müqavilənin yuxarıda göstərilən maddəsində deyilirdi: “Ermənistan Respublikasının hökuməti erməni qüvvələrini Bakıdan çıxmağa məcbur etmək üçün özünün bütün qüvvələrini səfərbər edəcəyini öhdəsinə götürür”. Bundan əlavə, yenicə yaradılan Ermənistan Respublikasının hökuməti “Respublika ərazisində (yəni Ermənistan Respublikası ərazisində) hər hansı silahlı quldur dəstələrinin yaradılmasının qarşısını alacağını, ölkənin müxtəlif yerlərində gizlənən və fəaliyyət göstərən bütün quldur dəstələrinin tərksilah ediləcəyini öhdəsinə götürdü”.

2. Erməni tərəfi öhdəsinə götürdü ki, Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınlar dayandırılacaqdır. Bu öhdəlik Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi sənədlərində də öz əksini tapıb. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Fətəli xan Xoyski İrəvan və ətrafındakı torpaqların ermənilərə verilməsi barədə Milli Şuranın 29 may 1918-ci il tarixli qərarından dərhal sonra xarici işlər naziri Məmməd Həsən Hacınskiyə verdiyi rəsmi göstərişdə yazırdı: “Biz ermənilərlə bütün mübahisələri bitirdik, onlar ultimatumumuzu qəbul edəcəklər və müharibəni dayandıracaqlar. Biz İrəvanı onlara güzəştə getdik”.

3. Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etməyi öhdəsinə götürdü. Ermənilərin qəbul etdiyi bu öhdəlik Osmanlı dövləti ilə yenicə yaradılmış Ermənistan Respublikası arasında bağlanmış Batum müqaviləsinin 6-cı maddəsində və müqaviləni tamamlayan III əlavədə təsbit olundu. Müqavilənin 6-cı maddəsinə və III əlavəsinə əsasən yeni yaradılan Ermənistan Respublikasında türk-müsəlman əhali bütün yuxarıda göstərilən sahələrdə ermənilərlə eyni hüquqa malik olmalı idi. Batum müqaviləsinin 6-cı maddəsində bu məsələ aşağıdakı kimi təsbit olundu:

“Ermənistan Respublikasında yaşayan müsəlmanların dininə və adətlərinə hörmət olunmalıdır...

Onlar başqa mədəniyyətlərə mənsub olan digər sakinlərlə eyni vətəndaşlıq hüquqlarına və siyasi hüquqlara malik olmalıdırlar. Onlar öz etnik dillərində təhsil ala və öz dinlərində ibadət edə bilərlər.

Müsəlmanlar praktiki olaraq öz dinlərində ibadət etmək və xeyriyyəçilik işlərilə məşğul olmaq üçün müsəlman icmaları yaratmaq, məscidlər, xəstəxanalar, məktəblər, dini müəssisələr açmaq və xeyriyyə cəmiyyətləri təşkil etmək hüququna malikdirlər.

İrəvan şəhərində Ermənistan Respublikası Müftisinin və respublikanın digər vilayətlərində müftilərin fəaliyyət göstərməsi zəruri hesab edilsin...”

Bəhs olunan müqaviləni tamamlayan III əlavədə bütün yuxarıda göstərilən öhdəliklər təfərrüatı ilə təsbit olunur və qeyd olunurdu ki, “Ermənistan hökuməti öz hesabına ibtidai və orta təhsil verən müsəlman məktəbləri açacaqdır”.

4. Batum danışıqları zamanı əldə olunmuş razılığa əsasən ermənilər Azərbaycana qarşı ərazi iddialarından imtina edəcəkdilər.

5. Bundan başqa, İrəvan və ətrafındakı torpaqların verilməsi müqabilində ermənilər Azərbaycanla vahid konfederativ dövlətdə birləşməli idilər.

Beləliklə, Batum danışıqlarında yuxarıda göstərilən məsələlərlə bağlı ilkin razılaşma əldə olunduqdan dərhal sonra, hələ Batum müqavilələrinin bağlanmasına, yəni 1918-ci il iyunun 4-nə bir həftə qalmış, 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının qərarı ilə qədim Azərbaycan şəhəri İrəvan onun ətrafındakı 9 min kvadrat kilometr ərazini əhatə edən torpaqlarla birlikdə ermənilərə verildi.

Azərbaycan Milli Şurasının 29 may 1918-ci il tarixli qərarına əsasən ermənilərə dövlət yaratmaq üçün İrəvanla birlikdə aşağıdakı Azərbaycan torpaqları verilmişdir: Yeni Bayazit qəzası (Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla), İrəvan qəzası (Qəmərli-Gərnibasar, Uluxanlı-Zəngibasar və Vedibasar istisna olmaqla), Eçmiədzin qəzası (Sərdarabad istisna olmaqla) və Aleksandropol qəzası (qəza mərkəzi Aleksandropol istisna olmaqla). Beləliklə, yeni yaradılmış Ermənistan Respublikası Göyçə gölü ilə Osmanlı dövlətinin yeni sərhədləri arasındakı dar dağlıq ərazini əhatə edirdi.

Ermənilərə verilmiş Azərbaycan ərazisinin əhalisi cəmi 321 min nəfər idi ki, onun da 230 mini erməni, 80 mini türk-müsəlman, 11 mini isə digər xalqların nümayəndələri idi.

Yeri gəlmişkən, ermənilərə verilmiş İrəvan və onun ətrafındakı Azərbaycan torpaqlarında yaşayan 230 min nəfər erməni bu yerlərə 1828-ci ildən sonra çar Rusiyası tərəfindən Osmanlı İmperiyası və Qacarlar İranından köçürülüb gətirilmişdi.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən qərar qəbul olunarkən 28 nəfər Milli Şura üzvündən 20 nəfər iştirak edirdi. Onlardan qərarın lehinə 16 nəfər səs vermiş, 1 nəfər əleyhinə olmuş, 3 nəfər bitərəf qalmışdı. Yəni qərar üçdəiki səs çoxluğu olmadan qəbul edilib. İyunun 1-də İrəvandan olan deputatlar - Mirhidayət Seyidov, Bağır Rzayev, Nəriman bəy Nərimanbəyov protest verdilər ki, bu, qeyri-qanuni qərardır.

Azərbaycan Milli Şurasının yuxarıda göstərilən iclasında, eyni zamanda, ermənilərlə konfederativ dövlət yaradılması da qərara alındı. Yəni İrəvan və ətrafındakı torpaqlar ermənilərə, həm də onlarla konfederativ dövlət yaradılması şərti ilə verilmişdi.

Beləliklə, 1918-ci il mayın 29-da Azərbaycan ərazisində - Cənubi Qafqazda erməni dövləti yaradıldı. Ertəsi gün - mayın 30-da erməni dövlətinin yaradılması barədə bəyannamə elan olundu.

Osmanlı dövlətinin vasitəçiliyi ilə Azərbaycan tərəfi ilə erməni tərəfi arasında razılıq əldə olunan kimi, daha doğrusu, ermənilər məqsədlərinə nail olduqdan dərhal sonra, 1918-ci il iyunun 4-də Batumda Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında “Dostluq”, Osmanlı dövləti ilə Gürcüstan və Ermənistan respublikaları arasında isə “Sülh və Dostluq” müqavilələri imzalandı.

Beləliklə, xalqın iradəsi ilə hesablaşılmadan onun torpağında İrəvan mərkəz olmaqla erməni dövləti yaradıldı. Cümhuriyyət hökuməti Azərbaycan torpaqlarının ermənilərə verilməsi səbəblərini beynəlxalq aləmə açıqlayan bəyanatla da çıxış etmədilər.

Ermənilər məqsədlərinə nail olduqdan dərhal sonra Batum danışıqları zamanı və Batum müqavilələrinə əsasən İrəvan və ətrafındakı Azərbaycan torpaqlarının onlara verilməsi müqabilində üzərlərinə götürdükləri bütün öhdəlikləri yerinə yetirməkdən imtina etdilər.

Belə ki, 1) Yeni yaradılmış erməni hökuməti götürdüyü öhdəliyin əksinə olaraq, nəinki Bakıda hakimiyyəti ələ keçirərək Azərbaycan xalqına qarşı soyqırımı cinayəti həyata keçirən Şaumyanla əlaqə yaradıb qırğınları dayandırmadı, əksinə, Şaumyanın göstərişi ilə daşnak-bolşevik qüvvələri ermənilərə dövlət yaratmaq üçün torpaq vermiş Azərbaycan Xalq Cümhuriyyəti hökumətini aradan qaldırmaq üçün Gəncə istiqamətində hücuma başladı və Azərbaycan xalqına qarşı yeni soyqırımları həyata keçirdi.

2) Ermənilər verdikləri vədlərin əksinə olaraq, Azərbaycan qəzalarında nəinki soyqırımlarını dayandırmadılar, əksinə, yeni yaradılmış Ermənistan Respublikasının silahlı müdaxiləsi və yardımı ilə Azərbaycan xalqına qarşı soyqırımları daha dəhşətli xarakter aldı.

3) Erməni tərəfi verilmiş vədlərin əksinə olaraq, nəinki yeni yaradılmış Ermənistan Respublikasının ərazisindəki türk-müsəlman əhalinin dini ibadət, mədəni, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin etmədi, əksinə, Azərbaycan ərazisində dövlət yaratmaq məqsədlərinə nail olan kimi yerli azərbaycanlılara qarşı dövlət səviyyəsində kütləvi soyqırımlarına başladı. Bununla kifayətlənməyən Ermənistan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini pozaraq Azərbaycan xalqına qarşı soyqırımlarının coğrafiyasını daha da genişləndirdi. Yeni-yeni Azərbaycan torpaqları işğal olundu. İşğal olunmuş Azərbaycan torpaqlarında türk-müsəlman əhaliyə qarşı etnik təmizləmə və soyqırımları həyata keçirildi. Ermənistan Respublikasının siyasi varisi olan müasir Ermənistan Respublikası hazırda ancaq ermənilərdən ibarət olan monoetnik və təcavüzkar dövlətə çevrilib. Beləliklə, vaxtilə əhalisinin böyük əksəriyyəti türk-müsəlman əhali olan müasir Ermənistan ərazisində 1 nəfər də olsun azərbaycanlı qalmayıb.

4) Yeni yaradılmış erməni dövləti - Ermənistan Respublikası götürdüyü öhdəliyin əksinə olaraq, nəinki Qarabağın dağlıq hissəsinə olan iddialarından əl çəkmədi, əksinə, Batum müqaviləsinin imzalanmasından dərhal sonra ermənilərə dövlət yaratmaq üçün ərazi vermiş Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini pozaraq yeni-yeni Azərbaycan torpaqlarının işğalına başladı. Məhz buna görə də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Fətəli xan Xoyski 1918-ci il iyulun 31-də o zaman İstanbulda danışıqlar aparan Azərbaycan nümayəndə heyətinin başçısı Məhəmməd Əmin Rəsulzadəyə belə bir göstəriş vermişdi: “Əgər ermənilər əldə olunmuş razılığı pozaraq Qarabağla bağlı iddia qaldırsalar, İrəvanın onlara güzəştə gedilməsindən imtina et”.

Qeyd etmək lazımdır ki, ermənilər bundan sonra da, bütün tarixi dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirdilər. Ozamankı Ermənistan Respublikasının varisi olan müasir Ermənistan Respublikası da həmin işğalçılıq siyasətini davam etdirərək öz havadarlarının köməyi ilə Dağlıq Qarabağı və ətrafındakı digər Azərbaycan rayonlarını da işğal etdi, 1 milyon nəfərdən çox azərbaycanlını öz doğma yurd-yuvalarından didərgin saldı və bütün dünyanın gözü qarşısında 1992-ci il Xocalı soyqırımını törətdi.

5) Batum müqaviləsinin şərtlərinə və Azərbaycan Milli Şurasının qərarına əsasən ermənilərə dövlət yaratmaq üçün İrəvan və ətrafında 9 min kvadrat kilometr sahəsi olan Azərbaycan torpaqları verilmişdi. Yəni erməni dövləti həmin ərazi çərçivəsində mövcud olmalı idi. Lakin, yuxarıda qeyd olunduğu kimi, ermənilər çox keçmədən Batum müqaviləsinin şərtlərini pozaraq Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirməkdə davam etdilər. Belə ki, 1918-ci ilin 29 mayında 9 min kvadrat kilometrlik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti müxtəlif dövrlərdə sovet imperiyasının birbaşa köməyi ilə daha 20,8 min kvadrat kilometr Azərbaycan torpağını ələ keçirərək ərazisini 29,743 min kvadrat kilometrə çatdırdı.

1918-ci il mayın 29-da 9 min kvadrat kilometrlik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti sonrakı dövrlərdə aşağıdakı Azərbaycan torpaqlarını işğal etdi: 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində sovet imperiyasının birbaşa köməyi ilə Zəngəzur qəzasından 405 000 desyatin (4414,5 kvadrat kilometr), Qazax qəzasından 535 096 desyatin (5832,82 kvadrat kilometr), Naxçıvan MSSR-dən 657 kvadrat kilometr, Cəbrayıl qəzasından Nüvədi, Eynəzir və Tuğut kəndlərini əhatə edən Azərbaycan torpaqları Ermənistan ərazisinə qatıldı. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və 29,743 min kvadrat kilometrə çatdırıldı.

Yuxarıda göstərilən işğallar nəticəsində Azərbaycan özünün ayrılmaz tərkib hissəsi olan Naxçıvandan ayrı salındı və Türkiyə ilə birbaşa əlaqə saxlamaq imkanından məhrum edildi.

Ermənilərin həyata keçirdiyi yuxarıda qeyd olunan işğallar nəticəsində, ümumiyyətlə, türk dünyası ölkələrinin bir-biri ilə birbaşa əlaqə saxlamaq imkanları da aradan qaldırıldı.

Bütün bunlarla kifayətlənməyən təcavüzkar Ermənistan 1988-1994-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ və ətrafındakı rayonlarından ibarət daha 17 min kvadrat kilometrlik ərazisini işğal etdi, insanlığa qarşı misilsiz vəhşilik aktı olan Xocalı soyqırımını törətdi.

6) Erməni tərəfi bütün yuxarıda göstərilənlərdən əlavə, Azərbaycanla konfederativ dövlət yaratmaq şərtini də yerinə yetirmədi. Daha doğrusu, Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da ermənilərlə konfederativ dövlət yaradılması barədə yekdilliklə qəbul etdiyi qərar da ermənilər tərəfindən yerinə yetirilmədi.

Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti İrəvan və ətrafındakı Azərbaycan torpaqlarını ermənilərə 1918-ci il Batum danışıqları (11 may - 4 iyun) və Batum müqavilələrinin (4 iyun 1918-ci il) şərtlərinə əsasən vermişdi. Azərbaycan tərəfi bu taleyüklü addımı atarkən ermənilərlə dostluq və mehriban qonşuluq münasibətləri yaratmağa çalışırdı və danışıqlarda iştirak edən erməni tərəfinin səmimiyyətinə inanırdı. Lakin erməni tərəfi Batum danışıqları zamanı əldə olunmuş razılaşmalara və Batum müqavilələrinin şərtlərinə əsasən üzərinə götürdüyü bütün öhdəlikləri birtərəfli qaydada pozdu: işğalçılıq, deportasiyalar və soyqırımları siyasətini davam etdirdi. Buna görə də 4 iyun 1918-ci il tarixli Batum müqavilələri və Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının 29 may 1918-ci il tarixli qərarı əslində öz hüquqi qüvvəsini itirib.

Mən Milli Məclisin deputatı olarkən Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququ ilə bağlı məsələni dəfələrlə parlamentdə səsləndirmişəm. Fikrimcə, erməni tərəfi 1918-ci il Batum razılaşmalarının və Batum müqavilələrinin bütün şərtlərini birtərəfli qaydada pozduğu üçün və bununla da göstərilən müqavilələr öz hüquqi qüvvəsini itirdiyinə görə Azərbaycan Xalq Cümhuriyyətinin qanuni varisi olan Azərbaycan Respublikası adekvat addım atmalıdır: Milli Məclisdə Azərbaycan Milli Şurasının xalqın iradəsini nəzərə almadan İrəvanın və ətrafındakı torpaqların ermənilərə verilməsi haqqında 29 may 1918-ci il tarixli qərarına yenidən baxılmalı və həmin qərar qüvvədən salınmalıdır. Bununla Azərbaycan xalqının öz tarixi torpaqlarına varislik hüququ bərpa olunmalıdır.

**Yaqub MAHMUDOV,**
***Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Dövlət mükafatı laureatı***

# Dünya mətbuatı Azərbaycanın uğurlarından yazır

**Redaksiyamıza Azərbaycan Respublikasının İspaniya Krallığındakı və Andorra Knyazlığındakı fövqəladə və səlahiyyətli səfiri Anar Məhərrəmovdan məktub daxil olmuşdur. Məktubda yazılır:** *"İspaniyanın böyük oxucu kütləsinə malik "Diplomacia Siglo XXI" (Diplomatiya XXI əsr) jurnalının may ayı buraxılışında ölkəmizlə bağlı geniş, şəkilli məqalələr dərc edilmişdir. "Biz birlikdə güclüyük! - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev" sərlövhəli məqalədə bütün dünyanın COVID-19 pandemiyası ilə üzləşdiyi bir vaxtda Prezident İlham Əliyevin problemə strateji baxışı və risklərin zamanında dəyərləndirilməsinə əsaslanan uzaqgörən qərarları nəticəsində COVID-19 pandemiyasına qarşı mübarizənin aparılması məqsədilə ölkəmizdə təxirəsalınmaz effektiv addımların atılması barədə ətraflı məlumat verilir.*

*Məhz dövlət başçısının təşəbbüsü ilə "Biz birlikdə güclüyük!" şüarı altında qısa müddət ərzində respublikamızda həyata keçirilən qabaqlayıcı tədbirlər, genişmiqyaslı və məqsədyönlü fəaliyyət təqdir olunur.*

*Məqalədə xüsusi olaraq vurğulanır ki, Prezident İlham Əliyevin çağırışı və sədrliyi ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, habelə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşlərinin keçirilməsi, Ümumdünya Səhiyyə Təşkilatına və Qoşulmama Hərəkatının ən çox yardıma ehtiyacı olan üzv-dövlətləri üçün maliyyə dəstəyinin ayrılması ölkəmizin regional və qlobal miqyasda koronavirus pandemiyasına qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verməsinin, Azərbaycanın etibarlı beynəlxalq tərəfdaş olmasının təzahürüdür.*

*"Şuşanın işğalından 28 il ötür..." başlıqlı məqalədə isə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yerləşən Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində yüzlərlə dinc sakinin öldürüldüyü və əsir götürüldüyü, Azərbaycan xalqının maddi-mədəni və mənəvi irsinə ağır zərbə vurulduğu barədə ətraflı məlumat verilir. Qeyd olunur ki, təcavüzkar ölkə Ermənistan beynəlxalq humanitar hüququn tələblərini kobudcasına pozaraq, Şuşanın işğalı zamanı aparılmış etnik təmizləmənin ardınca orada Azərbaycan tarixi-mədəni mirasının məhv edilməsi və tədricən şəhərin mədəni simasının dəyişdirilməsinə yönələn qanunsuz əməllərini bu gün də davam etdirməkdədir.*

*Qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müxtəlif beynəlxalq platformalardan verdiyi bəyanatlarla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə Azərbaycanın qətiyyətli mövqeyini, Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu daim dünya ictimaiyyətinin diqqətinə çatdırır. Məqalədə ötən il Rusiyanın Soçi şəhərində keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasında Prezident İlham Əliyevin çıxışından sitat gətirilərək, "Qarabağ - Azərbaycandır və nida işarəsi" ifadəsi xüsusi olaraq vurğulanır.*

*Qeyd etmək istərdik ki, nəfis tərtibata malik "Diplomatiya XXI əsr" jurnalı ölkədə böyük oxucu kütləsinə və xüsusi nüfuza malik olmaqla yanaşı, İspaniyanın dövlət orqanları, xüsusilə Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyi, bu ölkədə akkreditə olunmuş diplomatik nümayəndəliklər, habelə İspaniya Krallığının Latın Amerikası ölkələrindəki səfirlikləri arasında geniş yayılır".*

**Səfirin məktubuna "Diplomacia Siglo XXI" jurnalında Azərbaycanla bağlı dərc edilən məqalələr və fotoşəkillər də əlavə olunmuşdur.**

**Əlbəttə, Azərbaycanın hər bir uğuru, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya mətbuatında gedən hər bir obyektiv yazı maraq və razılıq doğurur. Odur ki, səfir Anar Məhərrəmovun bizə ünvanladığı məqalə və şəkilləri hörmətli oxucuların diqqətinə təqdim edirik.**












# "Biz birlikdə güclüyük!"

Bütün dünyanın COVID-19 pandemiyası ilə üzləşdiyi bir vaxtda Azərbaycan Respublikası etibarlı beynəlxalq tərəfdaş olduğunu bir daha göstərdi.

Ötən ilin sonlarında Çində başlamış, qısa müddət ərzində dünyanın əksər ölkələrinə yayılmış COVID-19 pandemiyası hər bir dövləti ciddi sınaq qarşısında qoydu. Son ayların təcrübəsi aydın şəkildə göstərdi ki, dərhal qabaqlayıcı tədbirlər həyata keçirən, heç bir halda xəstəliyə laqeyd yanaşmayan dövlətlərdə virusun yayılmasının qarşısı çevik şəkildə alınır və koronavirus infeksiyasının daha ciddi fəsadlara yol açmasına imkan verilmir.

COVID-19 pandemiyasına qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda heç şübhəsiz ki, Azərbaycan Respublikasının adı xüsusilə qeyd olunmalıdır.

Prezident İlham Əliyevin problemə strateji baxışı və risklərin dəyərləndirilməsinə əsaslanan uzaqgörən qərarları nəticəsində COVID-19 pandemiyasına qarşı mübarizənin aparılması məqsədilə ölkədə təxirə salınmadan zəruri addımlar atılmışdır. 2020-ci ilin fevral ayının sonlarında ölkədə koronavirusa ilk yoluxma halı qeydə alındıqdan dərhal sonra operativ şəkildə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. 27 fevral tarixində koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət Operativ Qərargah yaradılmışdır.

Virusun ilk öncə xarici ölkələrdən səfər edən insanlarda müşahidə olunması nəzərə alınaraq, yükdaşıma və çarter reysləri istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxış dayandırılmışdır. Yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə 3 mart tarixindən etibarən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırılmışdır. Bununla yanaşı, ölkə ərazisində mart ayının 4-dən etibarən sosial izolyasiya tədbirlərinə başlanılmış, sonrakı günlərdə izolyasiya tədbirləri genişləndirilmiş və ölkədə karantin rejimi tətbiq olunmuşdur.

COVID-19 pandemiyası dövründə əhalinin sosial müdafiəsi sahəsi Prezidentin xüsusi diqqət mərkəzində olmuşdur. Dövlət sektoru üzrə 900 mindən çox işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilmiş, hər hansı əsassız ixtisarlara yol verilməməsi üçün bütün dövlət qurumlarına müvafiq tapşırıq verilmiş, sahibkarlara müraciət olunmuşdur. Pandemiya nəticəsində işsiz qalan şəxslərə birdəfəlik ödəmələr həyata keçirilmiş, habelə 80 min ailə - 330 min nəfər ünvanlı sosial yardım proqramından faydalanmışdır.

Bu istiqamətdə görülmüş digər sosial-iqtisadi tədbirlərlə yanaşı, koronavirusla mübarizəyə cəlb edilən tibbi heyətin sosial təminatının yaxşılaşdırılması üçün əlavə addımlar atılmış, bu kateqoriyadan olan tibb işçilərinin əməkhaqqı müvafiq olaraq 3, 4 və 5 dəfə artırılmışdır.

Azərbaycan Respublikasında koronavirus infeksiyasının yayılmasının qarşısını almaq və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmışdır. Bu qəbildən olan fond dünyada ilk dəfə Azərbaycanda təsis edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva birillik əməkhaqqı məbləğlərini Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə etmişlər. Qısa müddətdə dövlət qurumları, bir çox hüquqi və fiziki şəxslər də bu çağırışa qoşularaq könüllü olaraq fonda müvafiq ianələr etmişlər.

Bu dövr ərzində xarici ölkədə müvəqqəti olan və Azərbaycan Respublikasına qayıtmaq istəyən 15 mindən çox vətəndaşın ölkəyə təxliyəsi həyata keçirilmiş, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı əsasında sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq yaşı 65-dən yuxarı olan 176 məhkum azadlığa buraxılmışdır.

Məhz effektiv nəticələrə görə Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunmuşdur. Bu mənada ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus tərəfindən mart ayının 23-də Prezident İlham Əliyevə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilərək, Azərbaycan nümunəvi ölkə kimi dəyərləndirilmişdir. Tedros Adhanom Gebreyesus COVID-19 pandemiyasının təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Azərbaycan Prezidentinin yürütdüyü siyasəti və atılan addımları təqdir etmişdir.

Bu gün milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görən Azərbaycan eyni zamanda regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verməkdə davam edir. Buna misal olaraq, cari ilin aprel ayında Azərbaycanın sədrliyi ilə təşkil olunmuş iki mühüm Zirvə görüşünü qeyd etmək lazımdır.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilmişdir. Türk Şurası dünya miqyasında dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşü keçirmiş ilk beynəlxalq təşkilat kimi tarixə düşmüşdür. Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birinə dəstək göstərilməsi və xalqlar arasında həmrəyliyin möhkəmləndirilməsi olmuşdur.

Zirvə görüşündə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev pandemiyanın ümumbəşəri bəlaya çevrildiyi bir şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı olduğunu bildirmiş, koronavirusun Azərbaycanda geniş yayılmasının qarşısının alınması ilə mübarizədə həyata keçirilmiş tədbirləri diqqətə çatdırmışdır.

Videokonfrans zamanı Türk Şurasına üzv dövlətlərin rəhbərləri çətin dövrdə Azərbaycan Prezidentinin atdığı qətiyyətli addımları alqışladıqlarını, pandemiya ilə mübarizədə dövlətimizin qabaqlayıcı tədbirlər həyata keçirərək çoxlarına nümunə olduğunu diqqətə çatdırmışlar. Zirvə görüşündə həmçinin pandemiyanın yaratdığı sosial-iqtisadi problemlərə toxunularaq, dövlət başçıları tərəfindən iqtisadi itkilərin minimuma endirilməsi məsələsi müzakirə olunmuşdur. Azərbaycanın təşəbbüsü ilə keçirilən Türk Şurasının Zirvə toplantısı həm təşkilata üzv dövlətlərin həmrəyliyi və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı kontekstində, həm də COVID-19 pandemiyasına qarşı birgə mübarizə səylərində vacib və əhəmiyyətli tarixi bir hadisə kimi yadda qalmışdır.

Digər belə bir tədbir Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşünün keçirilməsi olmuşdur.

Zirvə görüşündə açılış nitqi ilə çıxış edən qurumun indiki sədri Prezident İlham Əliyev COVID-19 qlobal pandemiyasının bütün dünya dövlətlərinə mənfi təsir göstərdiyini qeyd edərək, pandemiyaya qalib gəlmək üçün qarşılıqlı dəstək, özünə qapanmama və birgə səylərin zəruri olduğunu vurğulamışdır.

Zirvə görüşündə Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik və zəruri qabaqlayıcı tədbirlər barədə məlumat verən Prezident İlham Əliyev, pandemiya dövründə Azərbaycan Respublikası üçün prioritet məsələ insanların sağlamlığının və onların sosial müdafiəsinin təmin edilməsi olduğunu diqqətə çatdırmışdır.

Prezident İlham Əliyev ölkədə həyata keçirilən qabaqlayıcı tədbirlər, pandemiya şəraitində Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün görülən işlər barədə ətraflı məlumat vermişdir.

Zirvə görüşü zamanı Azərbaycan Respublikasının Prezidenti, eyni zamanda, qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürmüşdür.

BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bande öz çıxışında BMT-nin çox böyük məmnunluqla bu kimi təşəbbüsləri dəstəklədiyini qeyd etmişdir.

BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciətində Baş katib Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirmişdir. Müraciətdə vurğulanmışdır ki, COVID-19 pandemiyasının miqyası və mürəkkəbliyi əlaqələndirilmiş qlobal cavab tədbirləri tələb edir, bu mənada Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlərin üçdə-ikisini əhatə edən Qoşulmama Hərəkatı qlobal həmrəyliyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus çıxışında Azərbaycanın təşkilata verdiyi dəstəyi yüksək dəyərləndirmiş, Azərbaycan hökumətinə və xalqına ÜST-ə 5 milyon ABŞ dolları həcmində maliyyə dəstəyinə görə təşəkkür etmiş, həmçinin təşkilata əlavə olaraq 5 milyon dollar həcmində yardım göstərdiyi üçün Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamat da Zirvə görüşünün təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edərək bildirmişdir ki, pandemiyaya qarşı mübarizədə Qoşulmama Hərəkatının oynadığı rol danılmaz və əhəmiyyətlidir.

Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Josep Borrell Borel videomüraciətində COVID-19-un dünyanın müxtəlif guşələrinin biri-birinə nə dərəcədə bağlı olduğunu göstərdiyini, bunun oyanış üçün qlobal çağırış olduğunu qeyd etmişdir. O, Qoşulmama Hərəkatının Zirvə görüşünün çağırılması təşəbbüsünü alqışlayaraq, pandemiyanın məğlub edilməsinin qlobal yanaşmanı və əlaqələndirilmiş cavab tədbirlərini tələb etdiyini diqqətə çatdırmışdır.

Zirvə görüşünün sonunda dövlət və hökumət başçıları tərəfindən qəbul edilmiş bəyannamədə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəyliyə, hazırkı böhranla mübarizədə multilateralizmə dəstək ifadə olunmuşdur.

***"Diplomacia Siglo XXI" jurnalının 2020-ci il may buraxılışı***

# Şuşanın işğalından 28 il ötür...

Bir vaxtlar "Azərbaycan musiqisinin beşiyi", "Şərqin konservatoriyası","Qafqazın sənət məbədi" adlandırılan, bir sıra görkəmli xadimlərin vətəni, eləcə də Azərbaycanın tarixi mədəniyyət mərkəzi, uzun illər Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuş Şuşa şəhəri artıq 28 ildir Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı sistematik təcavüz siyasətinin tərkib hissəsi olaraq, 1992-ci ilin may ayının 8-də Ermənistan silahlı qüvvələri tərəfindən tarixi Azərbaycan şəhəri olan Şuşa işğal olunmuşdur. İşğal nəticəsində Şuşa şəhəri və rayonun 30 kəndi dağıdılmış, 195 nəfər dinc sakin həlak olmuş, 165 nəfər yaralanmış, 58 nəfər itkin düşmüş, 24 mindən çox əhali etnik təmizləməyə məruz qalmışdır.

Azərbaycan xalqı üçün müstəsna tarixi, mədəni, mənəvi və rəmzi əhəmiyyətə malik olan Şuşa şəhərinin işğalı ilə Azərbaycan xalqının maddi-mədəni və mənəvi irsinə ağır zərbə vurulmuşdur. Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə dağıdılmış, məbədgah və məscidlər təhqir və vandalizmə məruz qalmış, çox sayda nadir əlyazma nümunələri məhv edilmişdir. Pənah xanın sarayı və kitabxanası, Xan sarayı və karvansara, Aşağı Gövhərağa və Saatlı məscidləri, Vaqifin mavzoleyi, Natəvanın evi, Azərbaycan milli operasının banisi Üzeyir Hacıbəyovun ev-muzeyi və digər tarixi-mədəniyyət nümunəsi Ermənistan qoşunları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Təcavüzkar ölkə Ermənistan beynəlxalq humanitar hüququn tələblərini kobudcasına pozaraq, Şuşanın işğalı zamanı aparılmış etnik təmizləmənin ardınca orada Azərbaycan tarixi-mədəni mirasının məhv edilməsi və tədricən şəhərin mədəni simasının dəyişdirilməsinə yönələn qanunsuz əməllərini bu gün də davam etdirməkdədir.

Qeyd etmək lazımdır ki, BMT-nin Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 nömrəli qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması təsdiq edilir və işğalçı Ermənistandan qüvvələrin Azərbaycanın bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müxtəlif beynəlxalq platformalardan verdiyi bəyanatlarla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə Azərbaycanın qətiyyətli mövqeyini, Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu daim dünya ictimaiyyətinin diqqətinə çatdırır.

# Prezident cəbhə bölgələrinin inkişafına xüsusi önəm verir

Ölkənin hərtərəfli yüksəlişində mühüm rol oynayan sənədlərdən biri də dövlət başçısının təşəbbüsü ilə 2004-cü ildən həyata keçirilən regionların sosial-iqtisadi inkişaf proqramlarıdır. Artıq hər biri beş ili əhatə edən üç Dövlət proqramı icra edilib, dördüncü proqram üzrə işlər isə cədvəl üzrə həyata keçirilir.

Prezident İlham Əliyev respublikanın regionlarının inkişafına xüsusi diqqət yetirir. Bölgələrdə proqram üzrə göprülən işlərin təməlqoyma mərasimində və ya açılışında şəxsən iştirak edir. Bununla yanaşı, hər bir rayona səfər etdikdə qarşıya çıxan problemləri operativ həll etmək üçün tədbirlər görür, lazım gəldikdə müvafiq sərəncam imzalayaraq vəsait ayırır. "Ağcabədi rayonunun Sarıcallı kəndində yeni ümumtəhsil məktəb binasının tikintisi ilə bağlı tədbir haqqında" və "Ağcabədi rayonunun Mingəçevir-Bəhrəmtəpə (109 km) - Avşar-Salmanbəyli-Aşağı Avşar-Xocavənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" imzalanan sərəncamlar bunu bir daha təsdiqləyir.

Ağcabədi ölkəmizin ən böyük taxılçılıq rayonlarındandır. Ölkə rəhbərinin bu günlərdə rayona səfəri zamanı Hindarx qəsəbəsində fermerlərin əkin sahəsində biçinin başlanması mərasimində iştirakı da bu səbəbdən irəli gəlir. Dövlət başçısına məlumat verildi ki, rayonda cari il 30 min hektarda taxıl əkilib ki, onun da 22 min hektarı buğdadır. Ötən il hər hektardan 35 sentner məhsul götürülüb ki, bu da ölkə üzrə ümumi göstəricidən yüksəkdir.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən Dövlət proqramlarının icrası aqrar, o cümlədən qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsullar istehsal edən müəssisələrin sayının artması, həmçinin ölkənin hərtərəfli inkişafı istiqamətində mühüm rol oynayır. Bölgələrin inkişafının əsas hədəflərindən biri də ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Prezidentin iştirakı ilə açılan Ağcabədi dənli bitki toxumlarının emalı müəssisəsi də ölkəmizin ərzaq təhlükəsizliyinə yüksək töhfə verəcək.

Yaxşı məhsul götürməyin təməlində dayanan əsas faktorlardan biri də yüksək keyfiyyətli toxumdan istifadədir. Emal gücü saatda 5 ton olan bu müəssisə toxum materiallarını 98 faiz təmizləmək gücündədir. Belə toxumlardan istifadə əkin sərfiyyatını 20-30 faiz azaltmaq imkanı verir. Bu, həmçinin əkinə sərf edilən toxumun həcmini, eləcə də fermerin məhsul istehsalına çəkdiyi xərcləri əsaslı şəkildə azaldır.

Rayonda yalnız aqrar sahəyə deyil, digər sosial məsələlərə də diqqət artırılmışdır. Ağcabədidə mövcud kanalizasiya və su sistemləri köhnəlmişdi. Bu isə rayon sakinlərinin su ilə təminatında müəyyən çətinliklər yaratmışdı. Odur ki, Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı çərçivəsində 2017-ci ildə "Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin icrasına başlanılmışdı. Səfər zamanı dövlət başçısına məlumat verildi ki, Ağcabədi şəhərini içməli su ilə təmin etmək məqsədilə 14 subartezian quyusu qazılıb, suyu şəhərə gətirmək üçün 15 kilometr uzunluğunda magistral su xətti çəkilib. Bununla yanaşı, şəhərin dayanıqlı su təminatını yaxşılaşdırmaq məqsədilə hər biri 10 min kubmetr olan 2 su anbarı tikilib, 350 kilometr içməli su xətti çəkilib, 8500 ünvana ev birləşməsi verilərək sayğaclar quraşdırılıb. Görülən işlər sayəsində artıq şəhər əhalisi 24 saat ərzində keyfiyyətli içməli su ilə təmin olunur.

"Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində Ağcabədi şəhərində həmçinin tullantı suların idarə edilməsi üçün tullantı su şəbəkəsi, 4 kanalizasiya-nasos stansiyası, 9 kilometr kanalizasiya kollektoru inşa edilib. Sutkada 10 min kubmetr olan təmizləyici qurğunun tikintisində isə son tamamlama işləri aparılır.

Səfər çərçivəsində dövlət başçısının iştirakı ilə "Ağcabədi-2" elektrik yarımstansiyası da istifadəyə verildi. Yarımstansiyanın istismara verilməsi cəbhəyanı rayon üçün xüsusi əhəmiyyət daşıyır. Belə ki, yarımstansiya Ağcabədi şəhərində sosial-iqtisadi təyinatlı obyektlərin, meliorasiya və suvarma sistemlərinin, ətraf kənd və qəsəbələrin, həmçinin Taxtakörpü ərazisində məskunlaşmış Laçından olan məcburi köçkünlərin, eləcə də hərbi hissələrin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsində mühüm rol oynayacaq. Yarımstansiyanın istifadəyə vetilməsi 5262-si əhali, 831-i qeyri-əhali olmaqla, ümumilikdə, 6093 abonentin elektrik enerjisinin təchizatını daha da yaxşılaşdıracaq.

Prezident İlham Əliyev rayonda "ASAN Həyat" kompleksinin açılışında da iştirak etdi. "ASAN xidmət", "ASAN Kommunal" mərkəzləri, "ASAN Vəkillik" bürosu, Uşaq Psixoloji Sosial İnkişaf Mərkəzi və vətəndaşların istirahəti və əylənməsi üçün bir sıra sahələrin daxil olduğu kompleks Ağcabədi, Ağdam, Beyləqan, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Zərdab rayonlarında qeydiyyatda olan 815 mindən çox vətəndaşa xidmət göstərəcək. Burada 207 əməkdaş və 45 könüllü çalışacaq.

Dövlət başçısı kompleksin açılışında rayonda görülən işlərə yüksək qiymət verərək demişdir: "Ağcabədidə infrastruktur tamamilə təzələnib. Elektrik enerjisi ilə bağlı əvvəlki illərdə problemlər var idi. İndi bu problemlər aradan qaldırılır. Bu gün Ağcabədidə açılacaq yeni yarımstansiya rayonu dayanıqlı enerji ilə təchiz edəcək. Ağcabədidə qazlaşdırmanın səviyyəsi 90 faizdən çoxdur. Cəmi bir neçə il bundan əvvəl burada insanlar, ümumiyyətlə, qazın nə olduğunu unutmuşdular... Mənim növbəti sərəncamlarımda yeni yol infrastrukturunun yaradılmasına əlavə vəsait ayrılması nəzərdə tutulub. Mənə verilən məlumata görə, Ağcabədi rayonunun şəhər və kənd yollarının 60 faizi yenidən qurulur, qalan 40 faizi üçün də bizim proqramlarımız var. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramında onlar təsbit edilib. Biz bütün yolları abadlaşdıracağıq".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## *Tural GƏNCƏLİYEV:* "Ölkəmizin ərazi bütövlüyü tezliklə bərpa ediləcək və Dağlıq Qarabağ Arayik kimilərdən təmizlənəcək"



Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində Ermənistan tərəfindən təşkil edilmiş qondarma rejimin "başçısının" açıqlamasına münasibət bildirib.

İcmadan AZƏRTAC-a bildiriblər ki, Tural Gəncəliyevin bununla bağlı açıqlamasında deyilir: "Ermənistan tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş Qarabağ bölgəsində yaradılmış qondarma rejimin qondarma "başçısı" Araik Arutunyan yenə öz sayıqlamaları ilə gündəmdə qalmağa çalışıb.

Azərbaycan Respublikasının işğal altındakı ərazilərini talamaqla, həmçinin Serj Sarkisyan və Robert Koçaryan kimi bəşəriyyət əleyhinə cinayətlər törətmiş quldurlara əlaltılıq etməklə özünə sərvət toplamış bir korrupsioner cinayətkarın belə narahatlıq keçirməsi bizdə təəccüb doğurmur.

Qondarma və oyuncaq rejimin oyuncaq "başçısı" yaxşı anlayır ki, onun özünün və onun kimilərin Azərbaycan Respublikası qanunları qarşısına mühakimə ediləcəyi gün çox yaxındır və bundan qaçış mümkün olmayacaq.

Bunu qeyd etmək vacibdir ki, hazırda Azərbaycanın Dağlıq Qarabağ bölgəsi Ermənistanın işğalı altında olduğundan, bölgənin erməni sakinləri Ermənistanın işğalçı rejiminin əsarətində yaşamağa məcbur ediliblər.

Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmizin ərazi bütövlüyü çox tezliklə bərpa ediləcək və Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi Arayik kimilərdən təmizlənəcək. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarının Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində birgə sülh şəraitində yaşaması tezliklə təmin ediləcək".

# Deqradasiyaya uğramış təşkilat

## **İlham ƏLİYEV:** "Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil"

*Əvvəli 1-ci səh.*

Bununla da Azərbaycanın enerji təhlükəsizliyi məsələlərində mövqeləri bir qədər də yüksələcək, Avropa İttifaqı ilə ölkəmizin münasibətləri yeni keyfiyyət mərhələsinə qədəm qoyacaq. Eyni zamanda bu gün Bakı beynəlxalq tədbirlər məkanı kimi tanınır. Hətta NATO-Rusiya və ABŞ-Rusiya hərbi dialoqları da Bakıda keçirilir.

Lakin Azərbaycanın qazandığı bu uğurlar regionla bağlı sağlam baxışları olmayan Qərbin bəzi dairələri tərəfindən qısqanclıqla qarşılanır. Respublikamıza qarşı inkarçı mövqedə dayanan Qərbin müəyyən siyasi dairələri zaman-zaman ölkəmizdəki demokratik vəziyyətlə bağlı qərəzli münasibət ortaya qoyublar. O cümlədən bir sıra təşkilatların qəbul etdiyi qətnamələrdə ölkəmizin demokratik inkişafı təhrif olunub, əsassız, real həqiqətləri inkar edən iddialar ortaya atılıb. Xüsusilə Azərbaycan hansısa uğura imza atanda, yaxud mühüm beynəlxalq tədbir ərəfəsində olanda həmin dairələr fəallaşıb, hətta daxili sabitliyi pozmağa, xaos yaratmağa cəhdlər ediblər. Amma bu cəhdlərin hamısı elə ilk addımda iflasa uğrayıb.

### AŞ PA tamamilə nüfuzdan düşmüş quruma çevrilib

Son dövrlərdə Azərbaycana qarşı sağlam məntiqlə əsaslandırılması mümkün ola bilməyən, buna görə yalnız qərəzli olduğu görünən münasibət bəsləyən təşkilatlardan birinin Avropa Şurasının Parlament Assambleyasının olması sirr deyil. Bu təşkilat mütəmadi olaraq Azərbaycanı hədəf seçir, onun təmsilçiləri tərəfindən ölkəmiz haqqında olmayan yalanlar uydurulur, yayılır. Azərbaycan dünyaya geridə qalmış ölkə kimi təqdim edilir, ölkəmizdə gedən müsbət proseslər qeydə alınmır. Bunların da nəticəsində əsassız və saxta məruzələr hazırlanır, qətnamələr qəbul edilir.

Lakin başqa bir reallıq da odur ki, son vaxtlar AŞ PA tamamilə nüfuzdan düşmüş bir quruma çevrilib, Qərbin bir sıra siyasi mərkəzlərinin maraqlarına ximət etməklə marginallaşıb və deqredasiyaya uğrayıb. AŞ PA-da son illər aparılan müzakirələrin daha sönük keçməsi heç kəsə sirr deyildir. AŞ PA-nın 324 əsas üzvü olsa da, müzakirələr zamanı əksər hallarda parlamentin ümumi sayının 1/3-i və ya daha aşağı hissəsi plenar iclaslarda iştirak edir. Məsələn, AŞ PA-nın bu ilin yanvarın sonlarında keçirilmiş qış sessiyasında Assambleyanın monitorinq proseduru ilə bağlı tərəqqi hesabatının səsverməsində 69 deputat, son vaxtlar AŞ-nin əsas müzakirə mövzularından biri olan yeni komplementar prosedurla bağlı qətnamənin səsverməsində isə 163 deputat iştirak edib.

Artıq AŞ PA dünyada gedən proseslərə heç bir təsir etmək gücündə deyil. Qurumun nüfuzu çox aşağı düşüb və bunun da başlıca səbəbi orada hökm sürən siyasi riyakarlıq, ikili standartlar və ədalətsizlikdir. Aydındır ki, siyasi alətə çevrilməsi səbəbindən hörmətdən düşən AŞ PA elə Azərbaycanın hesabına özünə reytinq qazanmağa, Avropadakı itirilmiş mövqelərini bərpa etməyə çalışır. Azərbaycan isə ermənipərəst dairələrin əlində alətə çevrilən bu təşkilata çoxdandır etibar etmir. Ən əsası bu təşkilatın çıxardığı qərarların Azərbaycan üçün heç bir əhəmiyyəti yoxdur.

Bu barədə Prezident İlham Əliyev bir neçə ay əvvəl Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü zamanı fikirlərini bildirmişdi. İyunun 3-də isə Tərtər Olimpiya İdman Kompleksinin açılışında rayonun bir qrup idmançısı ilə görüşən Prezident İlham Əliyev deyib: *"Avropa Şurası Parlament Assambleyasının əsas hədəflərindən biri Azərbaycanı ləkələmək, ölkəmizi gözdən salmaq, ölkəmiz haqqında uydurmalar yaymaq, saxta məruzələr qəbul etdirmək, Azərbaycanda "beşinci kolonu", satqınları və münaqişə ilə bağlı Ermənistan tərəfini dəstəkləməkdir. Ona görə Avropa Şurası bu saxta seçkilərlə bağlı səsini belə çıxarmadı. Bu halda hansı obyektivlikdən, hansı ədalətdən söhbət gedə bilər! Mən deyəndə ki, Avropa Şurası tərəfindən Azərbaycan ilə əlaqədar qəbul edilmiş sənədlər mənim üçün bir kağız parçasından artıq deyil, bunu nəzərdə tuturdum. Bütün Azərbaycan ictimaiyyəti görüb ki, Avropa Şurası anti-Azərbaycan mövqedədir və bu təşkilatda anti-Azərbaycan meylləri, azərbaycanafobiya hökm sürür və bizə ünvanlanmış bütün ittihamların təməlində məhz azərbaycanafobiyadır".*

### Azərbaycan müstəqil siyasəti, qətiyyətli mövqeyi olan dövlətdir

Martda Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində qondarma "prezident və parlament seçkiləri" keçirildi. Həmin "seçkilər" beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq rədd edildi. Dünyanın aparıcı və mötəbər təşkilatları və bir sıra ölkələr Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə etməklə yanaşı, qondarma "seçkiləri" tanımadıqlarını bildirdilər. Lakin Azərbaycanı tənqid etmək üçün ən kiçik fürsətdən belə yararlanmağa çalışan AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Stefan Şennak və Roger Qey bu məsələdə indiyədək qəribə səssizlik nümayiş etdirdilər. Göründüyü kimi, qərəz və kin yuvası olan AŞ PA bir daha mötəbər olmağı bacarmadı.

AŞ PA-nın erməni təəssübkeşlərinin maraqlarına xidmət edərək Azərbaycanla bağlı daim müzakirəyə çıxardığı məsələlərdən biri "siyasi məhbus" mövzusudur. İndiyə qədər "siyasi məhbus" anlayışını verə bilməyən AŞ PA məruzəçiləri onlara ötürülən yalanlar, donoslar əsasında Azərbaycanda "siyasi məhbus" axtarışına çıxsalar da, heç kimi tapa bilməyiblər. Çünki Azərbaycanda heç kim siyasi baxışlarına görə həbs edilməyib. Hər bir vətəndaş siyasi fəaliyyətində, düşüncələrində sərbəstdir. Azərbaycandan fərqli olaraq Ermənistanda Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra bu ölkədə sırf siyasi baxışlarına görə vətəndaşlar həbs olunub, vaxtilə seçkilər zamanı ölüm hadisələri baş verib, namizədlərə silahlı basqın olub. Amma AŞ PA bunların heç birinə münasibət bildirməyib.

Bundan başqa, Avropa ölkələrində insan hüquqlarının kobud şəkildə pozulması, toplaşmaq azadlığının ən qəddar vasitələrlə boğulması inkarolunmaz reallıqlardır. ABŞ-ın Minneapolis şəhərində "Nəfəs ala bilmirəm", - deyə inildəyən silahsız qaradərili Corc Floydun ölümündən sonra bş verənlər insan hüquqlarının pozulması ilə müşayiət olundu. Amma heç bir təşkilatdan səs çıxmadı.

AŞ PA kimi ikili standartlardan çıxış edən, siyasi alət rolunu oynayan bir təşkilatın fəaliyyətinin və çıxardığı qərarların Azərbaycan üçün əhəmiyyəti yoxdur. Azərbaycan müstəqil siyasəti, qətiyyətli mövqeyi olan dövlətdir. Ona görə AŞ PA və ya qeyrisi Azərbaycana təsir edə bilməz.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## *Operativ Qərargah:* Ölkə üzrə xüsusi karantin rejiminin iyulun 1-dək uzadılmasına qərar verilib

Azərbaycan Respublikası ərazisində yeni nov koronavirus (COVID-19) xəstəliyi ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilib və son günlərdə virusa yoluxma sayı, xəstəliyin yayılma dinamikası nəzərə alınaraq, ölkə üzrə xüsusi karantin rejiminin 1 iyul 2020-ci il saat 00:00-dək uzadılmasına qərar verilib.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanda virusa ilk yoluxma faktının qeydə alındığı tarixdən bu günədək COVID-19 testi müsbət çıxmış 8191 nəfər aşkarlanıb, hazırda isə 3487 aktiv xəstə müalicəsini xüsusi karantin rejimli xəstəxanalarda davam etdirir.

Ölkə üzrə sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, son günlər Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yüksək yoluxma faktları aşkar edilib. Bu baxımdan COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejimi tətbiq ediləcək.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah aşağıdakıları qərara alır:

- 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılır (xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti, həmçinin onların əməkdaşlarına məxsus şəxsi avtomobillərin, eyni zamanda yaxın qohumlarının dəfnində iştirakla əlaqədar vətəndaşların şəxsi avtomobillərinin hərəkəti istisna olmaqla);
- 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edilir;
- sakinlər qeyd olunan müddətdə Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almaqla tərk edə bilərlər.
- 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərində, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yalnız aşağıdakı qurum və xidmətlərin fəaliyyətinə icazə verilir:
- siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilən dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların fəaliyyəti;
- hüquq mühafizə və hərbi xidmət nəzərdə tutulmuş orqanların fəaliyyəti;
- xəstəxanalar, təcili tibbi yardım müəssisələrinin fəaliyyəti;
- sosial xidmət müəssisələrinin fəaliyyəti, o cümlədən əqli və hissiyyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti;
- kommunal xidmətlər (su təchizatı və kanalizasiya, qaz təchizatı, istilik təchizatı, enerji paylanması, məişət tullantılarının yığılması və utilizasiyası);
- elektrik enerjisinin istehsalı və təchizatı;
- meliorasiya və su təsərrüfatı;
- rabitə xidmətləri;
- teleradio yayımçılarının (televiziya və radio kanalları, kabel televiziyaları) fəaliyyəti;
- dəmir yolu, avtomobil, dəniz, hava nəqliyyatı ilə yük daşımaları;
- boru kəmərləri ilə nəqliyyatın təmin edilməsi fəaliyyəti;
- fasiləsiz istehsalat fəaliyyəti (istehsalat-texniki şərtlərə görə fəaliyyətinin dayandırılması mümkün olmayan müəssisələr);
- neft və qazın hasilatı, emalı, saxlanması və satışı;
- çörək məhsullarının istehsalı (2020-ci il 15 iyun saat 16:00-dan etibarən);
- fəaliyyəti dayandırılmış iş və xidmət sahələrinin mühafizə və texniki təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətlər.

Müəyyən olunmuş tarixlər üzrə fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslər, onların xidməti və şəxsi avtomobillərin hərəkətinə işəgötürən tərəfindən məlumatlar elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol veriləcək. Fəaliyyətinə icazə verilən qurumlar, eyni zamanda dövlət əhəmiyyətli, həyat təminatlı müəssisələrin və qurumların, həmçinin fasiləsiz işləyən qurumların fəaliyyətləri zəruri hesab edilən işçilərini məhdud sayda cəlb etməklə tənzimlənəcək.

Xüsusi karantin rejiminin tələblərinin pozulmasına görə, fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyır.

COVID-19 virusu ilə mübarizədə, insanların sağlamlığı və təhlükəsizliyinin qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərdə həmrəylik nümayiş etdirdiklərinə görə, vətəndaşlarımıza bir daha təşəkkür edir, özünüzün və yaxınlarınızın səhhəti naminə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və qaydalarına əməl etməyə çağırırıq.

Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq digər günlərdə 65 yaşdan yuxarı insanların ciddi zərurət olmadan yaşayış yerlərindən və ya olduğu yerlərdən çıxmamaları tövsiyə olunur. Eyni zamanda kütləvi yoluxma hallarının qarşısının alınması məqsədi ilə xüsusi karantin rejimi müddətində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, ictimai iaşə obyektlərində bir yerdə insanların 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağasına, qoruyucu vasitələrdən istifadə edilməsi qaydalarına ciddi əməl olunması tələb edilir.

## *Operativ Qərargah:* Azərbaycanın dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət iyulun 1-dək uzadılır

Azərbaycan Respublikasının dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət 2020-ci il 1 iyul tarixədək uzadılır.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, yeni növ koronavirus (COVID-19) infeksiyasının geniş yayılmasının qarşısının alınması üzrə həyata keçirilən tədbirlər çərçivəsində dövlət sərhədində giriş-çıxışa müvəqqəti olaraq tətbiq edilən məhdudiyyətin və beynəlxalq uçuşların təxirə salınma müddəti artırılıb.

COVID-19 pandemiyası ilə bağlı dünyadakı vəziyyət təhlil edilərək yükdaşımaları və çarter reysləri istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət 2020-ci il 1 iyul tarixədək uzadılıb.

## Azərbaycanda COVID-19-a daha 315 nəfər yoluxub, 229 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 315 yeni yoluxma faktı qeydə alınıb, 229 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 8191 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 4606 nəfər müalicə olunaraq sağalıb, 98 nəfər vəfat edib. Aktiv xəstə sayı 3487 nəfərdir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 349 min 200 test aparılıb.

## Qeyri-qanuni yollarla Bakıya sərnişin gətirən sürücülər həbs ediliblər

Ölkədə tətbiq edilən sanitar-karantin qaydalarına zidd olaraq, rayon qeydiyyatında olan şəxsləri bölgələrdən qanunsuz yollarla Bakıya gətirən sərnişin mikroavtobuslarının sürücüləri saxlanılıblar.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Bakı sakinləri Şərkan Kamalov, Şamo Şamilov, Sumqayıt sakini Elçin Əliyev və Füzuli rayon sakini Hafiz Ağayev tutulublar.

Araşdırma zamanı Hafiz Ağayevin və Elçin Əliyevin sərnişinləri əvvəlcədən razılaşdıqları kimi, Ələt qəsəbəsindəki karantin postuna bir neçə kilometr qalmış avtomobildən düşürdükləri müəyyən olunub. Burada isə sərnişinlər Şərkan Kamalovun və Şamo Kamilovun idarə etdikləri mikroavtobuslara mindirilərək posta daxil olmadan müxtəlif yollarla paytaxta gətirilib.

Faktlarla bağlı dəstə üzvlərinin hər biri İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə təqsirli bilinərək, məhkəmənin qərarı ilə 30 sutka inzibati qaydada həbs ediliblər.

## *Azərbaycan Müdafiə Nazirliyi:* David Tonoyanın Ermənistan ordusu barədə səsləndirdiyi "konsepsiya" absurddur

David Tonoyanın Ermənistan ordusu barədə səsləndirdiyi "konsepsiya" absurddur.

Bunu Ermənistan müdafiə naziri David Tonoyanın işğalçı ölkənin ordu quruculuğu konsepsiyasına dair çıxışı ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Azərbaycanın Müdafiə Nazirliyindən bildiriblər.

Nazirliyin açıqlamasında qeyd olunub ki, Ermənistan müdafiə naziri David Tonoyanın "ordu quruculuğu konsepsiyasına dair" fikirlərinə münasibət bildirərkən, ilk növbədə, qeyd etmək lazımdır ki, bu, son günlər Ermənistanda yüksək vəzifəli hərbçilərin tutduqları postlardan azad edilməsi fonunda onun öz kreslosunu qoruyub saxlamaq üçün atdığı populist addımdır. Xarici dövlət borcunun dövlət büdcəsini üstələdiyi, iqtisadiyyatının isə xarici ianələr və "marafonlar"dan əldə olunan vəsaitlər hesabına formalaşdığı bir ölkənin müdafiə nazirinin bu cür çıxış etməsi absurddur. Belə ki, D.Tonoyanın səsləndirdiyi fikirlərin Ermənistan miqyasında praktiki olaraq həyata keçirilməsi mümkün deyil. Buna nə Ermənistanın iqtisadiyyatı, nə də hərbi potensialı imkan vermir.

"Ermənistanın müdafiə nazirinin daxili auditoriyaya ünvanlanmış bu fikirləri müxtəlif xarici hərbi-strateji əsərlərdən götürülmüş nəzəri fərziyyələrdən başqa bir şey deyil.

D.Tonoyanın çıxışında diqqət çəkən məqamlardan biri isə Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağda, qoşunların təmas xəttində yerləşdirilməsi barədə etirafıdır ki, bu da Ermənistanın işğalçı ölkə olduğunu bir daha rəsmi şəkildə təsdiq edir", - deyə Azərbaycan Müdafiə Nazirliyinin açıqlamasında qeyd olunub.

# Pandemiya dövründə etibarlı xəbər mənbələrinə müraciətlər artıb

"Pandemiya dövründə jurnalistikanın ənənəvi prinsipləri dezinformasiyaların qarşısının alınmasında böyük rol oynadı və biz etibarlı xəbər mənbələrinə müraciətlərin artdığını gördük". Bu fikirləri AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti Aslan Aslanov Avropa Xəbər Agentlikləri Alyansının (EANA) baş katibi Aleksandr Giboiyə müsahibəsində bildirib.




Müsahibədə Azərbaycanda xüsusi karantin rejimi müddətində dövlət başçısının tapşırığı ilə hökumətin həyata keçirdiyi miqyaslı sosial tədbirlər paketindən, evdə qaldığı müddətdə insanlara göstərilən maddi dəstəkdən bəhs edilib. Diqqətə çatdırılıb ki, bu dövrdə yayılan şayiələrin qarşısının alınmasında Operativ Qərargahın jurnalistlərlə birgə fəaliyyəti önəmli rol oynayıb. "Belə həssas məqamlarda istənilən özfəaliyyət, yoxlanılmamış məlumatın yayımı vəziyyəti daha da ağırlaşdıra bilər. Biz sosial şəbəkələr, mesencerlər vasitəsilə çox sayda dezinformasiya, uydurma məlumatlar paylaşıldığının şahidi olduq. Kimlərsə haradansa nələrsə eşidib onu tanışlarına göndərir və bu da bir qar topası kimi böyüyərək minlərlə insanı əhatə edir. Azərbaycanda karantin rejimi müddətində Nazirlər Kabineti yanında Operativ Qərargahın müntəzəm brifinqlər keçirməsi və sualları operativ cavablandırması vəziyyəti xeyli dəyişdi", - deyə Aslan Aslanov bildirib.

AZƏRTAC-ın xüsusi karantin rejimində fəaliyyəti ilə bağlı suala cavab olaraq İdarə Heyətinin sədri qeyd edib ki, agentlik insanları COVID-19 xəstəliyi ilə bağlı məlumatlandırmaq və maarifləndirmək üçün işlərə hələ yanvardan başlayıb, infoqrafikalar, ekspert rəyləri, videoreportajlar hazırlayaraq abunəçilərə göndərib, veb-resurslarında, sosial şəbəkə səhifələrində yayıb: "İnsanların evdə qaldığı xüsusi karantin rejimində etibarlı məlumata olan ehtiyaclarının necə artdığının, bizim agentliyi doğru məlumat mənbəyi kimi seçdiklərinin şahidi olduq. Statistik məlumatlara əsasən deyə bilərəm ki, karantin rejimində bizim informasiyalara müraciətlər 40 faizə qədər yüksəldi. Sosial şəbəkə səhifələrimizdə həm abunəçilərin sayı, həm də digər KİV-in müraciəti artdı. Bu da agentliyin xəbərlərinə olan etibardan irəli gəlir".

Müsahibədə, həmçinin AZƏRTAC-ın xüsusi karantin rejimi müddətində əməkdaşların təhlükəsizliyini təmin etmək istiqamətində görülən tədbirlərdən danışılıb. Qeyd olunub ki, işçilərə dezinfeksiyaedici maddələr, tibbi maskalar paylanılıb. Kollektivin 70 faizi məsafədən çalışsa da, agentlik 8 dildə informasiya, video və foto buraxılışını davam etdirib.

Postpandemiya dövründə xəbər agentliklərinin fəaliyyəti ilə bağlı fikirlərini paylaşan Aslan Aslanov vurğulayıb ki, sosial şəbəkə bumuna, açıq informasiya mənbələrinin sürətlə artmasına baxmayaraq, gələcəkdə də xəbər agentliklərinə ehtiyac olacaq. "Sosial medianın genişlənməsi, onlayn media resurslarının artması, informasiyaya çıxışın hər kəs üçün əlçatan olması agentliklərə təsir edir və edəcək. Lakin cəmiyyətin seçim etmək imkanı olacaq: 100 illik tarixi olan media qurumuna etibar etsin, yoxsa yeni yaranan hansısa bir resursa? Əlbəttə, sosial-psixoloji amil seçimi böyük təcrübəsi olan medianın xeyrinə edəcək. Pandemiya dövründə biz bir daha bunun şahidi olduq. Eyni zamanda real şərait göstərir ki, agentliklər informasiya texnologiyalarından daha çox yararlanaraq resurslarını gücləndirməli, fəaliyyətlərini şaxələndirməlidirlər", - deyə o qeyd edib.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.




# İnsanları təhdid edən təhlükə davam edir

*Əvvəli 1-ci səh.*

Vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin etibarlı müdafiəsi və hazırkı qlobal problemin təsirindən qorunması üçün bütün imkanlardan istifadə edilir.

Buna görədir ki, COVID-19-un birinci dalğası zamanı ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlər virusun yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verdi. Koronavirusdan sağalan xəstələrin sayı ona yoluxanların sayını xeyli üstələdi. Ölkədə tətbiq edilən sərt karantin rejimi mərhələli şəkildə yumşaldılmağa başlandı.

### İnsanlarda virusun tamamilə məhv olması fikri formalaşmışdı

Bu ərəfədə əhali diqqətli olmalı, virusun yenidən alovlanmaması üçün tövsiyə olunan bütün qaydalara daha çox əməl etməli idi. Amma elə yumşalmanın ilk zamanlarından etibarən bunun əksi ilə qarşılaşdıq. Karantinin yumşaldılması əhali arasında yanlış olaraq virusun tamamilə məhv olması fikrini formalaşdırdı. Əksəriyyət koronavirusdan əvvəlki həyat normaları ilə yaşamağa başladı. Nə sosial məsafə gözlənildi, nə də maskanın istifadəsinə ehtiyac görüldü... Bir sözlə, ehtiyat əldən verildi və koronavirusa qarşı dövlətin aylardır mübarizə aparıb qazandığı pozitiv dinamika əks istiqamətə doğru sürətlə irəliləməyə başladı. Yeni yoluxmaların sayı artaraq 3 rəqəmli həddə sıçradı, həyatını itirənlərin sayı artdı. Həmçinin yoluxanlar arasında daha gənc yaşlarda olanlara da rast gəlinməyə başlandı, hansı ki, infeksiyaya yoluxmanın birinci dalğasında bu hal çox az müşahidə olunmuşdu.

Elə təkcə iyunun 8-də Azərbaycanda koronavirus infeksiyasına 323 yeni yoluxma faktı qeydə alınıb, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış beş nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 7876 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 93 nəfər vəfat edib, 3406 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi aparılır.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3515, ötən müddət ərzində isə ümumilikdə 343 391 test aparılıb.

### Məcburiyyət qarşısında verilən qərar

Bu nəticələrə əsasən Nazirlər Kabineti yanında Operativ Qərargah yenidən karantin rejiminin sərtləşdirilməsi ilə bağlı qərar verməyə məcbur oldu. 2020-ci il 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırıldı. Qeyd olunan tarixdə əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edildi. Yalnız xüsusi təyinatlı, qəza-bərpa, təcili tibbi yardım avtomobillərinin və fəaliyyətinə icazə verilən orqanların (qurumların) və təşkilatların xidməti avtomobillərinin hərəkətinə icazə verildi.

Eyni zamanda Milli Məclis tərəfindən İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edildi, qoruyucu vasitələrdən istifadə etməməyə görə cərimələr müəyyənləşdirildi.

### Həftəiçi günlərdə də lazımi qaydalara əməl edilməlidir

Amma adıçəkilən tədbirlərin qısa zamanda müsbət nəticə verəcəyini gözləmək də hələ tezdir. Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı həftə sonunda tətbiq edilən sərt karantin qaydalarının nəticəsinin bu həftənin əvvəlində müşahidə edilməyəcəyini söyləyib. Onun sözlərinə görə, COVID-19 virusunun inkubasiya dövrü 7-10 gündür: "Biz iki gün ərzində insanların təmasını minimuma endirdik. Həftənin son iki günündə karantin qaydalarının tətbiqi onunla əlaqədardır ki, həmin günlərdə iş aktivliyi onsuz da aşağı idi. Əsas məqsəd o idi ki, biz qaydalara əməl edərək təması minimuma endirək. Biz bu həftə buna nail olduq".

R.Bayramlı qeyd edib ki, 1-2 həftə sonra aparılacaq təhlillər həftə sonunda tətbiq edilən karantinin əhəmiyyətini göstərəcək: "Ona görə də planlaşdırılır ki, bu, qarşıdakı həftələrdə və bayram günlərində tətbiq edilsin. Amma insanlarımız işləməyə icazənin verildiyi 1-5-ci günlər ərzində də lazımi qaydalara əməl etməlidirlər".

### Dövlət başçısının maskadan istifadə etməsi əhaliyə nümunə və mesajdır

Prezident İlham Əliyevin Tərtərdəki muzeyin açılışına maska ilə qatılması əhaliyə nümunədir. Həm də vəziyyətin nə qədər təhlükəli olması və yalnız qaydalara riayət etməklə, xüsusilə də ictimai yerlərdə maska taxmaqla virusdan qorunmağın mümkünlüyünə dair bir mesajdır. Əhali bundan nümunə götürməli, nəticə çıxarmalı və bilməlidir ki, koronavirusla mübarizə birbaşa vətəndaş məsuliyyətindən asılıdır.

Şənbə və bazar günləri qapalı həyata keçmək həmin günlərdə yoluxmanın qarşısının alınması, sayın minimuma endirilməsi, vətəndaşlarımızın bir-biri ilə daha az kontakta girməsi üçün atılan addımdır.

Amma həftəiçi də eyni həssaslığı nümayiş etdirib sosial məsafəni gözləməli, ictimai yerlərdə, nəqliyyatda maska taxmalı, fərdi gigiyena qaydalarına riayət etməliyik.

### Tətbiq edilən qaydalar yalnız o halda səmərəli olur ki...

Özümüzü, yaxın və doğmalarımızı, xalqımızı, genefondumuzu qorumalıyıq. Mütəxəssislərin də söylədiyi kimi, koronavirus çox təhlükəli xəstəlikdir, sürətlə yayılır, qəfil ağırlaşma verir. Onun digər qorxulu cəhəti isə odur ki, bəzən yoluxdurduğu şəxsdə heç bir simptomatik hal müşahidə edilməsə də, o, virus daşıyıcısına çevrilərək ətrafdakıları yoluxdura bilir ki, xüsusilə bu şəxslərin maska taxması həyati əhəmiyyət daşıyır.

Ölən və yoluxanların sayının artması həkimlərin və digər tibb işçilərinin gərgin şəraitdə işləməsinə səbəb olur. Həmçinin xəstəxanalarda çarpayı, süni nəfəs aparatlarının çatışmazlığı yaranır. Və arxasınca daha neçə ağlagəlməz faciələrə yol açılır.

Göründüyü kimi, tətbiq edilən qaydalar, həyata keçirilən qabaqlayıcı tədbirlər yalnız o halda effektli olur ki, ona əməl edilsin. Yəni cansağlığımızın təhlükədə olmaması, həyatımızın əvvəlki məcraya yönəlməsi də özümüzdən asılıdır. Birmənalı olaraq qaydalara əməl etməli, sosial izolyasiyanı gözləməli, gigiyenaya riayət etməli, maska taxmalıyıq. COVID-19-un peyvəndinin tapılması ilə bağlı tibb aləminin elan edəcəyi şad xəbər verilənə qədər bu bəladan sığortalanmağımızın yeganə qurtuluş yolu da elə budur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan məktəblilərinin "Dərs vaxtı"

## Virtual dərslərin gerçək ünvanından reportaj













Sükuta bürünmüş, "boynu bükük" qalmış məktəb...

Ətrafda nə şagirdlərin səs-küyü var, nə şən-şaqraq gülüşləri eşidilir. Nə zəng çalınır, nə də dərsə tələsən məktəblilər, müəllimlər gözə dəyir...

Səssizlik çöküb məktəbin həyətinə, binasına, dəhlizinə... Cansız daşların da gözü yol çəkir sanki. Daş hafizəsinə, quru "canına" hopmuş məktəb zənginə, uşaqların hay-küyünə möhtac qalıb aylardır.

Məktəbin alışdığımız qaynar həyatını qulaqbatırıcı bir sükut əvəzləyib xeyli vaxtdır.

"Mənə qalsa, doğru deyil bu sükut. Nə nöqtəsi, nə vergülü yerində..."

Amma elə bu sakit, səssiz həyatın içində də başqa bir dünya var. Bu sükutun içində belə əks-sədası bütün ölkəyə yayılmış, miqyasca böyük bir iş görülür.

İndi bu bina təkcə bir neçə yüz şagirdin təhsil aldığı məktəb deyil. İndi bura bütün Azərbaycan məktəblilərinin - 1, 6 milyon şagirdin tədrisə cəlb olunduğu təhsil ocağıdır. Üç aydır bütün ölkədə həftəiçi hər gün nümayiş olunan, məktəbi müəyyən qədər əvəz edən "Dərs vaxtı" adlı teledərslərin çəkildiyi, ərsəyə gətirildiyi məkandır...

Biz də teledərslərin çəkiliş prosesini izləmək, görülən işlərlə yaxından tanış olmaq üçün layihənin həyata keçirildiyi məktəbə getdik. Beləliklə, virtual dərslərin gerçək ünvanında - 6 nömrəli məktəbdəyik.

Koronavirusdan qorunmaq üçün müvafiq sanitar-epidemioloji qaydalara uyğun olaraq binaya daxil olan hər kəsin öncə qızdırması ölçülür, əllərinə dezinfeksiyaedici məhlul vurulur. Tibbi maska ilə təmin ediləndən sonra içəri keçməsinə icazə verilir.

Məktəbin ikinci və üçüncü mərtəbəsi layihənin icrası üçün ayrılıb. Hər gün səhər saat 9-dan axşama kimi, müəllim heyəti də daxil olmaqla, təxminən 100 nəfərdən ibarət komanda pandemiya dövrünün şərtlərinə, gigiyena qaydalarına əməl etməklə burada fəaliyyət göstərir. Gün ərzində 40-60 teledərs çəkilib montaj edilir.

### "Dərs vaxtı" vasitəsilə 1,6 milyon şagird tədrisə cəlb olundu

Dünyanın gərdişini, düzənini dəyişən koronavirus bütün sahələrdə yeni normalar müəyyənləşdirdi. Pandemiya dünyada təhsil sistemlərinə də təsirsiz ötüşmədi. Martın 2-də dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq, Nazirlər Kabineti tərəfindən COVID-19 infeksiyasına yoluxma halının qarşısının alınması, ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə tədrisin, təlim-tərbiyə prosesinin dayandırılması və bununla əlaqədar bütün tədbirlərin təxirə salınması barədə qərar qəbul edildi. Həmin vaxt ölkə ərazisində bütün təhsil müəssisələrinin fəaliyyətini dayandırması barədə qərar dünyada yalnız 12 ölkə tərəfindən verilmişdi, sonradan isə bu qərar, demək olar ki, bütün ölkələri əhatə etdi. Qərara uyğun olaraq, martın 3-dən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi mərhələlərlə tədris ilinin sonunadək dayandırıldı. Təhsilin fasiləsizliyini və davamlılığını təmin etmək məqsədilə Təhsil Nazirliyi tərəfindən teledərslərin təşkili ilə bağlı işlərə başlandı. Bu məqsədlə qısa müddət ərzində peşəkar heyət müəyyənləşdirildi, texniki təchizat məsələləri həll edildi və teledərslərin çəkilişlərinə start verildi.

Dərslərin nümayişi üçün televiziyanın seçilməsi təsadüfi deyildi. Belə ki, ölkənin bütün regionlarında, xüsusilə də ucqar kəndlərdə şagirdlərin fasiləsiz və sürətli internet bağlantısı ilə təmin edilməsində çətinliklər olduğu üçün onların müəyyən hissəsinin dərslərdən yararlana bilməməsi ehtimalı var idi. Dövlət televiziyasının bütün ölkəni əhatə etdiyi nəzərə alınaraq, dərslərin 2 televiziya kanalında (Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalı və "ARB Günəş" kanalı) yayımlanması barədə qərar qəbul edildi. Beləliklə, martın 11-dən etibarən şənbə və bazar günləri istisna olmaqla, hər gün 5-6 saat "Dərs vaxtı" yayımlanmağa başlandı, ümumi təhsil müəssisələrində təhsil alan 1,6 milyon şagird tədrisə cəlb olundu.

Dərslər ümumi təhsil proqramına uyğun olaraq bütün sinifləri və əksər fənləri əhatə edir. Nümayiş etdirilən bütün teledərslər sonradan sərbəst istifadə üçün Təhsil Nazirliyinin "www.video.edu.az" elektron portalında və rəsmi "Facebook" səhifəsində, "Youtube" kanalında da yerləşdirilir.

### "Bir neçə müəllimlə təkcə üz ifadəsinə görə sağollaşdıq"

Dərslərin çəkilməsi kənardan asan görünsə də, əslində, uzun prosesdir. Bu, müəllimlərin seçilməsindən başlayıb, onların dərsə hazırlanması, hazırlıq prosesi ilə bağlı konsultasiyaların aparılması, operator otağında iki rakursdan dərslərin çəkilməsi, montaj otağında çəkilmiş dərslərin montaj edilməsindən ibarətdir. Sonda operatorlar ayrı-ayrı çəkilmiş dərsləri siniflər üzrə və dərs cədvəlinə uyğun qruplaşdırırlar.

Bəs görəsən televiziya vasitəsilə dərs keçən müəllimlərin seçimi necə həyata keçirilib?

Təhsil İnstitutunun Təhsil İşçilərinin Peşəkar İnkişafı Mərkəzinin direktoru Nəzakət Mehdiyeva ilə bu barədə söhbət etdik. Deyir ki, çəkilişlərin ilk günü seçim imkanı olmadığına görə Bakının ən yaxşı fənn müəllimləri layihəyə cəlb edildi. Paralel olaraq məktəb direktorlarına təcrübəli müəllimlərini çəkilişə göndərmələri ilə bağlı elan verildi. Beləliklə, seçimlər başlandı. Təxminən 250-300 müəllim seçimlərə qatılsa da, onlardan 110-u layihə üçün seçildi: "Əvvəl müəllimlərlə şifahi müsahibə aparırdıq. Nitqinə baxırdıq, kamera qarşısında özünü necə hiss etdiyini soruşurduq. Əsas danışığı, fənnini bilməsi və hansı metodikadan istifadə etməsi idi. İkinci addımda tapşırıq verirdik ki, sabaha bir dərs çək. Kamera önündə necə danışdıqlarına baxırdıq. Ola bilər nitqi gözəldir, amma kamera önündə həyəcanlanır, özünü itirir, bu zaman səs əsir. Belə müəllimlərlə dərhal sağollaşırdıq. Təxminən 20 ən güclü, olimpiadalara şagird hazırlayan müəllim teledərsə uyğun gəlmədi, çünki kamera qarşısında özlərini çox pis hiss edirdilər. Birinci meyarımız o idi ki, təcrübəli müəllim olsun. Amma sonradan başa düşdük ki, vizual görüntüyə də fikir vermək lazımdır. Bir neçə müəllimlə təkcə üz ifadəsinə görə, qaşqabaqlı, ciddi olduqları üçün sağollaşdıq".

### "Müəllimlər dərsi qısaldıb danışa bilmirdilər"

Təbii ki, çəkilişlər zamanı xeyli çətinliklər və problemlər üzə çıxıb. N.Mehdiyevanın sözlərinə görə, müəllimlərin teledərslərə çəkilməsində əsas çətinliklərdən biri öyrətmə mühitinin sinifdəkindən fərqli olmasıdır. Belə ki, müəllim sinifdə dərsləri izah edərkən şagirdlərin reaksiyasına baxır, onların sual dolu baxışlarını görəndə nəyi anlamadıqlarını hiss edir. Şagirdlərin verdiyi suallardan başa düşür ki, məhz onlar hansı məsələni mənimsəməkdə çətinlik çəkirlər. Teledərslərin çəkiliş otağı isə boşdur və müəllim yalnız öz fərziyyəsinə, illərin təcrübəsinə əsasən nələri daha çox vurğulamaq, hansı məsələnin üzərində daha çox dayanmaq lazım olduğunun fərqindədir. Belə əks əlaqə olmadan dərs keçmək isə hər müəllimdə dərhal alınmır. Onların buna vərdiş etməsi üçün zaman lazım olur. Bəziləri daha peşəkar olur və dərhal vəziyyətə uyğunlaşırlar. Bəziləri isə çətinlik çəkir: "Seçim prosesi zamanı digər ən böyük problemimiz ümumiləşdirmə ilə bağlı oldu. Məqsəd bu idi - tədris etdiyin mövzü vasitəsilə şagirdə çatdırmaq istədiyin əsas fikri, vacib mesajı 10-12 dəqiqəlik vaxta sığdırmağın səmərəli yolunu düşün. Yəni müəllimə şərt qoyulurdu ki, 45 dəqiqəlik dərsi 10 dəqiqəyə ümumiləşdirin. Çəkiliş başlayırdı, dərs 35 dəqiqə davam edirdi. Müəllimlər dərsi qısaldıb danışa bilmirdilər. Yuxarı sinif müəllimləri bir neçə məşqdən sonra buna alışdılar. Ancaq ibtidai sinif müəllimləri ilə son günlərə qədər çox əziyyət çəkdik. Dərsi danışır, çəkiliş gedir, sonra oturub baxanda görürsən ki, istənilən nəticə alınmayıb. Tədris etdiyi mətnin qəhrəmanı məsələn, dovşandırsa, bütün dərsi dovşana həsr edir. Soruşanda uşağa nə öyrətmək istəyirdiniz, deyir "Dovşan" hekayəsini. Demək, bu müəllim hələ də anlamır ki, hekayə sadəcə vasitədir. Hardasa 30-40 yaxşı adlandırdığımız ibtidai sinif müəllimini o şablondan çıxa bilmədikləri üçün çəkmədik. Sonradan müəyyən gənc müəllimlərdə bu proses daha tez alındı. Burda əsas çətinlik müəllimin sinifdəki metodikasını teledərsə gətirmək bacarığıdır. Sinifdə o metodika düzgün deyilsə, burda da düzgün olmayacaq. Bu çəkilişlər kurikulumla bağlı boşluqları da ortaya qoydu. Müəllimlərin çoxu elə bil şüuraltında bu cür formalaşıb, ya o cür təhsil alıblar, uzun illər çalışıblar deyə, ənənəvi təhsildən çıxa bilmirlər. Bu problem təkcə ibtidai sinif yox, dil müəllimlərində də var. Dəqiq fənlərdə çətinlik nisbətən az oldu. O müəllimlərin böyük əksəriyyəti dərsi canlı deməyi sevirlər. Əksəriyyəti iddia edir iki, dərsi 10 dəqiqəyə izah etmək çətindir, çünki mürəkkəb misallardır, ətraflı izah olunmalıdır. Amma bacaranlar oldu. Yaxud texniki problemlər yaranırdı. Məsələn, hər şey hazırdı, dərs efirə gedə bilər. Amma son anda problem çıxıb, həmin dərs yenidən çəkilməli olub. Yəni bu proses uzaqdan göründüyü kimi, asan başa gəlməyib. Böyük komandanın gərgin əməyinin bəhrəsi hesabına ərsəyə gəlib".

Bu proseslər Azərbaycan müəllimi üçün bir ilkdir. Teledərslərin mahiyyətini anlamaq, ruhunu tutmaq baxımından müəllimlər üçün böyük bir məktəbdir. Çox qısa müddətdə tamamilə yeni, vərdiş etmədiyi şəraitdə dərs keçməyə alışmaq üçün müəllimdən böyük əzm tələb olunur. Sevindiricidir ki, müəllimlərin böyük əksəriyyəti bu çətinliyi aşdı və layihə uğurlu alındı. Bəs teledərslər müəllimə nə verdi?

Nəzakət xanımın fikrincə, əvvəllər adətən müəllimlər yalnız bir məktəb daxilində bir-birinin dərslərini dinləyib, fikir bildirə bilirdilərsə, indi bir-birini əvvəldən tanımayan müəllimlər tamamilə doğma bir mühitə düşdülər. Bir-birinin dərslərini dinlədilər, rəy bildirdilər, birlikdə işlədilər, səhvləri düzəltmək, ən yaxşısını təqdim etmək üçün kiçik bir məsələni dəfələrlə müzakirə etməyi öyrəndilər. Bu şəraitdə müəllim-müəllim əməkdaşlığının inanılmaz bir forması üzə çıxdı. Teledərslərin təcrübəsi gələcəkdə müəllimlərin peşəkarlığının artırılmasına da töhfəsini verəcək. Müəllimlərin metodik bacarıqlarının inkişaf etdirilməsi üçün hər il yeni ixtisasartırma proqramları hazırlanır. Teledərs təcrübəsi həmin proqramların məzmununun zənginləşdirilməsi üçün bir mənbə olacaq. Təlimlərdə, seminarlarda müzakirə və təhlil etmək üçün də xeyli material toplandı. Müəllimlərin peşə bacarıqlarının inkişaf etdirilməsi üçün bundan sonra bir neçə məsələlərə ciddi diqqət yetiriləcək. Müəllimin nitqinin sürətli olması, böyük məzmunu az vaxt ərzində izah etmək, bir neçə məzmunu ümumiləşdirmək, faktları qruplaşdırıb təqdim etmək bacarıqları və digər bu kimi məsələlər üzərində düşünmək və iş aparmaq lazım olacaq.

### "Şagirdlərlə ünsiyyət üçün darıxırıq"

Dərsinin montaj prosesində iştirak edən 6 nömrəli məktəbin rus dili, ədəbiyyat müəllimi Sevinc Hüseynovaya yaxınlaşırıq. Teledərslə ənənəvi təhsilin fərqini soruşuruq. Deyir ki, fərq böyükdür. Sinifdə görməyə alışdığımız, ünsiyyət qurduğumuz şagirdlər, qarşılıqlı sual-cavab mühiti burada yoxdur. Məktəb, sinif otağı boşdur. Ancaq müəllim hər şəraitdə müəllim olmağı bacarmalıdır: "Kamera, çəkiliş prosesi müəllim üçün yaddır və yenidir. Odur ki, kamera önündə çıxış etmək özü də müəllimdən məharət tələb edir. Dərsi izah edən zaman şagirdlərə müraciət edərək xəyalən onları qarşımızda hiss etməyə çalışırıq. Hesab edirəm ki, üç ay ərzində müəyyən uğurlara nail olduq, virtual dərslər səmərə verdi. Bacardığımız qədər çalışdıq ki, şagirdlər karantin müddətində dərsdən geri qalmasınlar, ardıcıl şəkildə biliklərini artırsınlar, bacarıqlarını inkişaf etdirsinlər. Lakin ənənəvi məktəb, dərs mühiti, şagirdlərimiz, onlarla ünsiyyət üçün çox darıxırıq. Ümid edirik ki, tezliklə koronavirus bəlasından qurtulacağıq və yeni dərs ilində əvvəlki, alışdığımız tədris bərpa olunacaq".

Qeyd edək ki, "Dərs vaxtı"nın son buraxılışı iyunun 12-də yayımlanacaq. Bu, tədris ilinin sonunadək təqdim edilən 2124-cü teledərs olacaq. İyunun 16-dan isə "Abituriyentlərə dəstək" adlı növbəti layihə efir həyatına başlayacaq.

Distant təhsil haqqında illərdir eşidirdik. Amma onun tətbiqinə ilk dəfə ehtiyac duyduq. Üstəlik, nümunəyə də çevrildik. Azərbaycanın teledərslər təcrübəsi sonradan Gürcüstan, Türkiyə, Ukrayna, Böyük Britaniya və digər ölkələr tərəfindən istifadə edilməyə başlandı. Bu və digər onlayn layihələr vasitəsilə nə qlobal problem, nə zaman, nə də məkan bizi təhsildən uzaq düşməyə qoymadı. Əksinə, pandemiya müəllim peşəsinin nə qədər əhəmiyyətli, müqəddəs və alternativsiz olduğunu bir daha təsdiq etdi. Və böyüklü-kiçikli hamımıza bir dərs verdi - heç bir virtual layihə əsl məktəbi, sinif otağını, canlı müəllim-şagird ünsiyyətini, çalınması səbirsizliklə gözlənilən məktəb zəngini əvəz edə bilməz...

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm



## Yəməndə COVID-19 xəstələrinin təxminən 25 faizi vəfat edir

Yəməndə yeni koronavirus infeksiyasına (COVID-19) yoluxan xəstələrin 25 faizə yaxını vəfat edir. Bu barədə BMT-nin ölkədəki Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisi yerli hakimiyyət orqanlarına istinadən məlumat vermişdir.

Məlumata görə, aprelin 10-dan iyunun 6-dək ölkədə 486 yoluxma halı qeydə alınmış, onların 112-si ölümlə nəticələnmişdir. Ölüm nisbəti 24,77 faizə çatmışdır. Özü də vəfat hallarının 75 faizi 45-59 yaşlı kişilərin payına düşür.

COVID-19-a ən çox yoluxma halları Ədən şəhərində qeydə alınmışdır - 130. Sonrakı yerdə Həzrəmövt əyalətidir - 126 hal.

## ABŞ-da koronavirus qurbanlarının sayı avqustadək 145 minə çata bilər



Cari ilin avqust ayınadək ABŞ-da yeni tip koronavirusdan ölənlərin sayı 145,7 min nəfərə çata bilər. Bu proqnoz Vaşinqton Universitetinə məxsusdur.

Bu, universitetin əvvəlki proqnozundan 5 min çoxdur.

ABŞ-ın Cons Hopkins Universitetinin verdiyi məlumata görə, hazırda ölkədə koronavirusa 1961185 nəfər yoluxmuşdur. Onların 111007 nəfəri vəfat etmişdir.

Dünyada isə dünən səhərə olan məlumata görə, COVID-19-a 7119454 nəfər yoluxmuş, 406540 nəfər vəfat etmişdir.

## Nigeriyada 979 nəfər naməlum xəstəlikdən ölüb



Nigeriyanın Kano ştatında beş həftə ərzində 979 nəfər naməlum xəstəlikdən vəfat etmişdir. Bu barədə Səhiyyə naziri Osagie Ehaniri məlumat vermişdir.

Ölənlər arasında yüksək vəzifəli məmurlar və tibb işçiləri də var.

Nazirin dediyinə görə, üç gün ərzində 150 nəfər naməlum xəstəlikdən öldükdən sonra ştata bir qrup həkim göndərilmişdi.

Ehanire qeyd etmişdir ki, ölənlərin əksəriyyəti 65 yaşlı və daha yaşlı şəxslərdir.

Bundan əvvəl Kano ştatının hakimiyyət orqanları ölüm səbəbinin əksər hallarda yüksək təzyiq, diabet, miqren və malyariya olduğunu bəyan etmişdi.

## Fələstin İsrailin tanınması qərarına yenidən baxmaq niyyətindədir

Fələstin dövlətinin yaradılması imkanı gündəmdən çıxsa, Fələstin rəhbərliyi İsrail dövlətinin tanınması qərarına yenidən baxa bilər. Bu bəyanatla Fələstinin Baş Naziri Məhəmməd İştiyyə çıxış etmişdir.

İştiyyənin dediyinə görə, İsrail Fələstinlə əldə edilmiş bütün sazişləri və Yaxın Şərqlə əlaqədar beynəlxalq razılaşmaları pozmuşdur. O, İsrailin Fələstinin işğal olunmuş torpaqlarını ilhaq etməsinin qarşısını almaq üçün göstərilən səyləri Fələstinin mövcudluğu uğrunda mübarizə kimi qiymətləndirmişdir.

Xatırladaq ki, ötən ayın 19-da Fələstin lideri Mahmud Abbas İsrailin Fələstin torpaqlarını ilhaq etmək planına cavab olaraq İsrail və ABŞ ilə bağlanmış bütün müqavilələrin ləğv olunacağını bəyan etmişdir.

# İstefalar Ermənistanı növbəti xaosa sürükləyir

## İşğalçı ölkədə ictimai-siyasi vəziyyət daha da gərginləşib

Ermənistanda baş nazir Nikol Paşinyanla güc strukturları, əsas etibarilə də Milli Təhlükəsizlik Xidməti arasında ciddi ziddiyyətlər daha əvvəldən müşahidə olunur. Bunun nəticəsidir ki, yekunda Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Eduard Martirosyanla yanaşı, silahlı qüvvələrin baş qərargah rəisi Artak Davtyan və polis rəisi Arman Sarkisyan vəzifələrindən istefa veriblər. Yerli medianın verdiyi xəbərə görə, Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi, general Artak Davtyan ölkədə hökm sürən karantin və fövqəladə vəziyyət rejiminə baxmayaraq, Yerevandakı villasında oğluna toy edib.

"Hraparak" qəzetinin yaydığı xəbərdən, Davtyanın qonşuluğundakı evlərdən birindən çəkilmiş videodan məlum olur ki, malikanənin həyətində yüzdən çox adamın iştirakılə toy mərasimi keçirilib. Kadrlara əsasən malikanənin qarşısında çoxlu avtomobillər dayanıb. Bildirilir ki, baş nazir Nikol Paşinyan bundan xəbər tutub və fövqəladə vəziyyət rejimi üzrə komendant Tiqran Avinyan bir neçə polisin müşayiəti ilə Davtyanın malikanəsinə gedərək toy mərasimini yarımçıq dayandırıb. Bu qalmaqala qədər də Ermənistanda vətəndaşların koronavirusa görə tətbiq edilmiş məhdudiyyətləri kütləvi pozması səbəbindən Paşinyan güc strukturlarının rəhbərlərinə iradlar bildirmişdi.

Artıq Nikol Paşinyan istefaların ardınca yeni təyinatları da elan edib. General-leytenant Onik Qasparyan silahlı qüvvələrin baş qərargah rəisi, polkovnik Arqişti Kərəmyan Milli Təhlükəsizlik Xidmətinin yeni direktoru, polkovnik Vaqe Kazaryan isə polis rəisi təyin olunublar.

Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin (MTX) keçmiş rəhbərlərindən olan Artur Vanetsyan ölkədə güc strukturları rəhbərlərinin istefalarına münasibət bildirib. O, "Twitter" sosial şəbəkəsində baş nazir Nikol Paşinyanı dayanmağa və ətrafında olanları tamamilə məhv etməməyə çağırıb: "Ətrafdakı hər şeyi məhv edib, qəzəbini başqalarına tökmək məhvə aparan yoldur. Dayan, Nikol!"

Bu xüsusda Ermənistanın "Jamanak" nəşri də yazır ki, ölkənin hüquq mühafizə sistemində kadr dəyişiklikləri gözlənilən idi. Nəşr qeyd edir ki, Ermənistan Milli Təhlükəsizlik Xidməti ilə Paşinyanın ciddi problemləri var idi. Bu qurumun keçmiş direktorlarından Artur Vanetsyanla yanaşı, Eduard Martirosyan Paşinyanla çətinliklər yaşayırdı. Xüsusən də daha əvvəl Ermənistan Milli Təhlükəsizlik Xidməti direktorunun müavini vəzifəsinə Argişti Kərəmyanın (hazırki direktor) təyinatından sonra burada qiyam başlamışdı. Məlumata görə, təyinatdan narazı olan bir sıra şəxslər xidmətdən istefa verdiklərini açıqlamışdılar. Qeyd edək ki, Arqişti Kərəmyan Ermənistan kəşfiyyatına Dövlət Nəzarət Komitəsindən gətirilib.

Bu arada Ermənistanda pandemiya fonunda sosial-iqtisadi sahədə vəziyyətin dəyişə biləcəyinə dair gözləntilər də özünü doğrultmur. Əslində, bundan sonra nəyinsə dəyişəcəyinə erməni cəmiyyəti inamını tam itirib. Ermənistanın baş naziri Paşinyana olan ümidlər də puça çıxıb. O, çıxışlarında köklü dəyişikliklər vəd etsə də, bunun sadəcə yalandan başqa heç nə olmadığı reallıqda öz təsdiqini tapır.

İkinci böyük parlament fraksiyasının - "Çiçəklənən Ermənistan" partiyasının lideri Qaqik Tsarukyan rəhbərlik etdiyi partiya fəalları qarşısında çıxışında Nikol Paşinyan hökumətində dəyişikliklər keçirilməsini tələb edib. Tsarukyana görə, koronavirus pandemiyası zamanı erməni baş nazir hökumət qarşısına qoyulan vəzifələrin həll edə bilmədiyini nümayiş etdirdi. Onun xalqa verdiyi vədlərin ən önəmlisi - "iqtisadi inqilab" hələ də yerində sayır. Yəni Paşinyan ölkə iqtisadiyyatı, onun irəli getməsi üçün hələ də heç nə edə bilməyib.

Partiyasının siyasi şurasında çıxış edən Qaqik Tsarukyan Paşinyan hökumətinin 97 faizinin deyil, 100 faizinin əvəz etməli olduğunu bildirib. Qeyd edilməlidir ki, Tsarukyanın bu açıqlamasına Paşinyan hələ şərh verməsə də, onun himayəsində olan "Mənim addımım" blokundan olan deputatlar tərəfindən kəskin reaksiyalar verilməkdədir. Yeri gəlmişkən bildirək ki, Ermənistanda ən böyük oliqarxlardan biri kimi tanınan Tsarukyanın "inqilabçı" hökumətə, xüsusən də Paşinyana ən böyük iradı ölkədəki investisiya böhranını indiyə qədər dəf edə bilməməsi ilə bağlıdır. Yəni baş oliqarx öz tənqidində əsasən hakimiyyətin investisiya siyasətinə toxunur.

Bütün bu qeyd edilənlər aydın şəkildə sübut edir ki, Ermənistanda yaxın vaxtda vəziyyət daha da gərginləşə bilər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 09.05.2020-ci il tarixli nömrəsində dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankı üçün elektrik mallarının satın alınması ilə bağlı kotirovka sorğusu Satınalmalar komissiyasının 03 iyun 2020-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 29 aprel və 23 may 2020-ci il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə Ceyranbatan Su Təchizatı İdarəsinin havalandırma sistemində və qazanxana binasında təmir işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin qəbulu vaxtı (tender təklifi və bank təminatı istisna olmaqla) 29 iyun 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 07 iyul 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 08 iyul 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 07.04.2020-ci il tarixdə dərc edilmiş P-274 M 2x0.5 naqilinin satın alınması prosedurunun qalibi "TƏLƏT" firması müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "TƏLƏT" firması arasında 08.06.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "Dəftərxana ləvazimatlarının satın alınması" ilə əlaqədar keçirilən tender üzrə "İNTELLEKT M.A" MMC qalib elan edilmişdir.

Həmin təşkilatla 09 iyun 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Prokurorluq şirkət rəhbərinin korrupsiya əməllərini ifşa edib

Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi inkişaf siyasətinin mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin edilməsi, aparılan iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən qanunla ona həvalə olunan səlahiyyətləri çərçivəsində daim diqqət mərkəzində saxlanılmaqla aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə korrupsiya hüquqpozmaları törətmiş vəzifəli şəxslərə qarşı ardıcıl mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilməkdə olan belə tədbirlərdən biri kimi Ağcabədi rayonunun Ağabəyli kəndində fəaliyyət göstərən "BMS AQRO" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinin qanunsuz əməlləri nəticəsində Kənd Təsərrüfatı Nazirliyinin "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə külli miqdarda ziyan vurulması barədə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş material araşdırılıb.

Keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində həmin MMC-nin təsisçisi və direktoru Mülhazil Balakişiyevin digər şəxslərlə qabaqcadan əlbir olaraq 5200 baş müxtəlif cins damazlıq xırdabuynuzlu mal-qaranın lizinq yolu ilə alınması ilə bağlı 2014-cü il iyulun 24-də "Aqrolizinq" ASC tərəfindən elan edilmiş tenderin qalibi olduqdan sonra ümumilikdə 3 milyon 692 min avro (həmin dövrün məzənnəsi ilə 3 milyon 581 min manat) məbləğində pul vəsaitinin köçürülməsinə nail olaraq müqavilə öhdəliyi üzrə 2 milyon 583 min avro (həmin dövrün məzənnəsi ilə 2 milyon 505 min manat) dəyərində 3600 baş xırdabuynuzlu mal-qaranın gömrük rəsmiləşdirilməsindən keçirməklə ölkəyə gətirərək qeyd olunan müqavilə üzrə ASC tərəfindən ona etibar edilmiş 1 milyon 109 min avro (həmin dövrün məzənnəsi ilə 1 milyon 76 min manat) məbləğində pul vəsaitini nağdlaşdırmaqla mənimsəməsinə əsaslı şübhələr müəyyən edilib.

M.Balakişiyevin əməllərində Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə) maddəsinin əlamətləri olduğundan ona həmin maddə ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Prokurorluq Sumqayıtdakı insidentlə bağlı məlumat yayıb

İyunun 8-də saat 13 radələrində Sumqayıt şəhəri Ağa Quliyev küçəsindəki 29/4 saylı binanın qarşısında 1986-cı il təvəllüdlü Aygün Şıxkərimovaya çoxsaylı bıçaq xəsarətləri yetirilməsi barədə daxil olmuş məlumat əsasında prokurorluq və polis əməkdaşları tərəfindən dərhal hadisə yerinə baxış keçirilib.

Sumqayıt Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilir ki, ətrafdakı insanların köməyi ilə A.Şıxkərimovanın vaxtında xəstəxanaya yerləşdirilməsi nəticəsində onun həyatını xilas etmək mümkün olub.

Aparılmış araşdırmalarla zərərçəkmişin əri 1988-ci il təvəllüdlü Teymur Şıxkərimovun qısqanclıq zəminində aralarında yaranmış münaqişə zamanı A.Şıxkərimovanı qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Sumqayıt Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb.

İş üzrə müvafiq ekspertizalar təyin olunub, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

T.Şıxkərimov könüllü gələrək, təslim olaraq cinayətin aləti olan bıçağı istintaqa təhvil verib.

Şübhəli şəxs qismində tutulan T.Şıxkərimov müdafiəçinin iştirakı ilə dindirilərkən törətdiyi əməli etiraf edib.

Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən e-tender.gov.az saytında 08.05.2020-ci il tarixdə elan edilmiş "Liftlərə xidmət" işlərinin kotirovka prosedurunun qalibi "Piramida-F.R" MMC müəyyən edilmişdir.

"Azərpoçt" MMC və "Piramida-F.R" MMC arasında 09.06.2020-ci il tarixdə kotirovka müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 30 aprel 2020-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə "Azərsu" ASC-nin tabeliyində fəaliyyət göstərən laboratoriyalarında istifadə olunan cihazların əsaslı və cari təmiri işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin qəbulu vaxtı (tender təklifi və bank təminatı istisna olmaqla) 22 iyun 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 01 iyul 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 02 iyul 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev ailəsi ilə birlikdə Elmir Həsənova anası

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən general-leytenant Mürsəl Vəliyevə anası

**TEYYUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Vüsal Həsənova atası

**NUŞİRƏVAN HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi İqtisadiyyat nazirinin müavini Sevinc Həsənovaya əzizi

**SÜDABƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Şahin İsgəndərova atası

**BƏBİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

5 saylı Uşaq poliklinikasının kollektivi İlham müəllimə və Sevinc xanıma əzizləri

**RAYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7455
Sifariş 1486
Qiyməti 40 qəpik